RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 113 (9568) 31 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Kapital daha çox bərpa-quruculuq işlərinə yönəldilir



**Qlobal miqyasda baş verən siyasi gərginlik və qarşıdurmanın iqtisadi tənəzzülə səbəb olmasını hiss etməyən ölkə yoxdur. Bu səbəbdən hazırda bütün dünya iqtisadiyyatında artım dinamikası aşağıdır. Hətta həmişə iqtisadi artımda yüksək nəticələrə nail olan Çində də azalma müşahidə olunur.**

İqtisadi fəallığın azalması bir sıra Avropa ölkələrindən də yan keçmir. İqtisadi inkişaf tempi dinamik və əhalinin sosial vəziyyəti yüksək olan həmin ölkələrdə bu gün bir sıra problemlər yaşanır. Dünyanın nəhəng iqtisadiyyatına malik və valyutası beynəlxalq dəyər ölçüsü olan ABŞ-da da vəziyyət ürəkaçan deyil. Bir sözlə, dünya üçün problemlər yaradanların özləri problem içindədir.

Qərb tərəfindən Rusiyaya və dolayısı ilə bir çox ölkələrə tətbiq olunan sanksiyalar və o üzdən ticarət əlaqələrinin zəifləməsi son anda qlobal kapital dövriyyəsinə də mənfi təsir göstərir. Yəni dönərli valyutaya sahib olan Qərb sərmayədarları nəhəng bazarlarda kapital qoyuluşundan məhrumdurlar. Belə geri dönüş bir çox iri kapital sahibi olan banklarda ciddi sıxıntılar yaşadır.

Məlumdur ki, dünya iqtisadiyyatının dinamikasını təmin edən üç əsas prinsip var: istehsal, ticarət və investisiya. Bu qaydaların hamısı bir-birinin inkişafını təmin edir. İndi onların başlıca elementlərindən biri olan investisiya qoyuluşu böyük ölçüdə azalıb.

Bütün bunların fonunda Azərbaycanda iqtisadiyyatın davamlı kapitallaşmasına xüsusi əhəmiyyət verilir. Bu səbəbdən ölkəmizdə əlverişli investisiya mühiti formalaşır, dövlət əksər qlobal layihələrin reallaşmasında investor kimi çıxış edir, paralel olaraq özəl sektoru sərmayəçi kimi belə layihələrə qoşulmaları üçün stimullaşdırır və s. Rəqəmlərə müraciət edək: Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-aprel aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5 milyard 230,4 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,5 faiz çox investisiya yönəldilmişdir.

→ 11

## "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə salamlayıram.

Bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir. Müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur.

Mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə, yaşamaq hüququnu sual altına qoymaqla bərabər ətraf mühitə də böyük ziyan vurur. Belə ki, partlayışlar zamanı yaranan plastik tullantılar ekoloji fəsadlara səbəb olaraq torpaqların strukturuna mənfi təsir göstərir. Uzun müddət torpağın içində qalan minalar zərərli kimyəvi reaksiyalara gətirib çıxarır. Minalara görə istifadə olunmayan torpaqlar təbii eroziyaya və aşınmaya məruz qalır. Bu baxımdan, bugünkü konfransın Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 öncəsi təşkil edilməsi xüsusi önəm daşıyır.

Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib.

Müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir. Mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. 2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür.

Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir.

Humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir və onun təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Hazırda ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurum Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi - ANAMA-dır.

Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizlənib. Lakin minalanmış ərazilər bundan daha genişdir. Minaları yerləşdirmək asan, onları təmizləmək isə qat-qat çətin və mürəkkəb prosesdir. Azərbaycan bu məqsədlə qısa müddət ərzində bütün gücünü səfərbər edərək dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə edir. Minatəmizləmə sahəsində səmərəliliyin artırılması üçün tərəfimizdən davamlı şəkildə müvafiq işlər görülür və hazırda imkanlarımız əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Azərbaycanda ötən ildən başlayaraq qadın minatəmizləyən qrupları da fəaliyyətə başlamışdır.

Ölkəmiz humanitar minatəmizləmə fəaliyyətini, demək olar ki, tam şəkildə öz resursları hesabına həyata keçirir. Minaların humanitar fəsadlarının aradan qaldırılması, torpaqların minalardan təmizlənməsi üçün beynəlxalq ictimaiyyətin adekvat siyasi və praktiki dəstəyi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edib. Bildiyiniz kimi, keçən il ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan etmişdir və bu məsələnin BMT-nin qlobal 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilməsi istiqamətində tərəfimizdən davamlı iş aparılır. Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində humanitar minatəmizləmə üzrə xüsusi əlaqə qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Qrup ötən ilin sentyabr ayında fəaliyyətə başlayıb.

Azərbaycanın təşəbbüsü ilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına Tərəf Ölkələrin 2023-cü ildə keçirilmiş 15-ci görüşündə "Minaların mədəni irsə təsiri" ilə bağlı qətnamə qəbul edilmişdir. Azərbaycan tərəfi bu mühüm qətnamənin davamı olaraq cari ilin may ayında Ağdamda "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi konfrans təşkil etmişdir.

Ölkəmiz son üç ildə BMT ilə birlikdə mina mövzusuna həsr edilmiş bir sıra beynəlxalq konfranslar keçirmişdir. Bu tədbirlər minaya qarşı fəaliyyət məsələlərinə dair əsas müzakirə platformaları olmaqla yanaşı, müasir dövrdə bəşəriyyəti narahat edən bu vacib problemə diqqətin artırılmasına xidmət edir. Hazırda Azərbaycan BMT ilə birlikdə mina fəaliyyətinin tədrisi üçün "Mükəmməllik Mərkəzi"nin yaradılması istiqamətində iş aparır. Konfrans çərçivəsində ANAMA və BMT-nin İnkişaf Proqramı arasında niyyət sənədi imzalanacaqdır. Bu əlamətdar hadisə Azərbaycanın bu sahədə öz təcrübəsini oxşar problemlərlə üzləşən digər ölkələrlə bölüşməyinə də kömək edəcəkdir.

Bugünkü tədbir Azərbaycanın müasir dövrün çağırışlarından olan mina ilə mübarizə əzmini nümayiş etdirir. İnanıram ki, konfrans mina probleminin, onun törətdiyi bütün, o cümlədən ekoloji fəsadların aradan qaldırılması imkanlarının müzakirəsinə, habelə mina fəaliyyəti sahəsində qabaqcıl təcrübə mübadiləsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV.***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2024-cü il*

## Bu gün regionda şərtləri qalib Azərbaycan diktə edir

2020-ci il sentyabrın 27-dən erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsi noyabrın 10-da Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Döyüş meydanlarında qazanılan bu qələbə regionda yeni reallıqlar yaratdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu döyüşlər apararaq Ermənistan ordusunun guya məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılmış mifi ayaqlar altına atdı. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Ölkəmiz öz gücü və qüdrəti ilə beynəlxalq təşkilatların 30 ilə bacarmadıqları problemi 44 gün ərzində həll etdi.

Qələbədən sonra Azərbaycan Ermənistana sülh gündəliyini təqdim etdi, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı təkliflər irəli sürdü. Azərbaycan bəyan etdi ki, havadarlarına arxalanan ermənilər çirkin əməllərindən əl çəkməli, təxribatlarına son qoymalıdırlar. Anlamalıdırlar ki, sülh müqaviləsinin imzalanmamasında itirən, 30 ildə olduğu kimi, bundan sonra da beynəlxalq əhəmiyyətli, irimiqyaslı layihələrin reallaşmasında iştirakdan təcrid olunan məhz Ermənistan olacaq. Azərbaycan bölgədə yeni geosiyasi reallıqlar yaradıb və ölkəmizin BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yaratdığı reallıqlar BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir. Ölkəmizin haqq səsi artıq dünyanın hər yerində eşidilir.

Mayın 15-də Azərbaycan və Ermənistan arasında gözlənilən protokolun imzalanması ilə Qazax rayonu istiqamətində delimitasiya prosesi yekunlaşdı. Qazaxın dörd kəndinin - Aşağı Əskipara, Bağanıs Ayrım, Qızılhacılı və Xeyrimli kəndlərinin Azərbaycana qaytarılması ölkəmizdə sevinclə qarşılansa da, Ermənistanda tamamilə bunun əksi baş verdi.

→ 12

## Aleksandr Stubb İlham Əliyevə zəng edib



Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı COP29-da Azərbaycanın sədrliyi və regiondakı siyasi məsələlər barədə fikir mübadiləsi aparılıb.

Finlandiya Prezidenti dövlətimizin başçısının dəvətinə əsasən COP29-da iştirakını təsdiq edib.

***Prezidentin Mətbuat Xidməti***

## Şuşaya qayıdanların sayı 400 nəfəri ötdü

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr şəhər və kəndlərimizin sürətlə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir. Bunun nəticəsidir ki, artıq 1935 ailə - 7544 nəfər əzəli məskənlərinə qayıdıblar. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 493 ailə (1838 nəfər) Laçın şəhərinə, 822 ailə (3132 nəfər) Füzuli şəhərinə, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndinə, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndinə, 105 ailə (406 nəfər) Şuşa şəhərinə, 44 ailə (169 nəfər) Xocalı şəhərinə yaşamaq üçün dönüb.



→ 15

# "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-4-cü, 7-ci, 10-cu, 12-ci, 13-cü, 16-19-cu, 23-cü, 26-cı və 27-ci bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I) 102.4-cü maddəsində və 126.1-ci maddəsinin birinci cümləsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Seçki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1.21-ci, 2.6.2-ci, 40.8-ci, 40.12-ci, 40.15-ci, 44.8-ci, 55.2.6-cı maddələrdə, 60.7-ci və 68.6-cı maddələrin ikinci cümlələrində, 95.2-ci maddənin üçüncü cümləsində, 96.9-cu maddənin birinci cümləsində, 109.2-109.4-cü, 110.3-cü, 115.1.7-ci maddələrdə, 159.1-ci, 159.2-ci, 192.1-ci, 228.1-ci və 228.2-ci maddələrin birinci abzaslarında ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin;

2.2. 11.3-cü maddədə, 124.1-ci maddənin birinci cümləsində, 145.4-cü, 205.3-cü, 213.2-ci maddələrdə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

2.3. 20-ci maddə üzrə:

2.3.1. adında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.3.2. 20.1-ci maddədə (hər iki halda) "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.4. 43-cü maddənin adında, 43.1-ci və 43.2-ci maddələrdə ismin müvafiq hallarında "Kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "Media subyektləri" sözləri ilə əvəz edilsin;

2.5. 69-cu maddə üzrə:

2.5.1. 69.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "media subyektlərində" sözləri ilə əvəz edilsin;

2.5.2. 69.5-ci maddənin ikinci cümləsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

2.5.3. 69.6-cı maddədə "teleradio verilişləri" sözləri "televiziya və radio proqramları" sözləri ilə, birinci halda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə, ikinci halda "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin;

2.6. 74-cü maddə üzrə:

2.6.1. 74.2.1-ci maddədə "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin;

2.6.2. 74.3-cü maddənin birinci cümləsində "Kütləvi informasiya vasitələri" sözləri "Media vasitəsi" sözləri ilə, "tele və radioverilişlər" sözləri "televiziya və radio proqramları" sözləri ilə əvəz edilsin;

2.7. 76-cı maddə üzrə:

2.7.1. 76.1-ci maddədə "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə əvəz edilsin;

2.7.2. 76.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.8. 77-ci maddə üzrə:

2.8.1. adında "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

2.8.2. 77.1-ci maddənin birinci cümləsində (hər iki halda) "teleradio təşkilatları" sözləri və üçüncü cümləsində "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.8.3. 77.2-ci maddənin birinci cümləsində (birinci halda) "verilişləri" sözü "proqramları" sözü ilə, həmin cümlədə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, ikinci cümləsində "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.8.4. 77.3-cü maddənin birinci cümləsində (birinci halda) "verilişləri" sözü "proqramları" sözü ilə, həmin cümlədə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, ikinci cümləsində "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.8.5. 77.4-cü maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, ikinci cümləsində "Teleradio verilişləri təşkilatları" sözləri "Televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.9. 78-ci maddə üzrə:

2.9.1. adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

2.9.2. 78.1-ci və 78.3-cü maddələrdə, 78.4-cü maddənin birinci və ikinci cümlələrində "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.10. 79-cu maddə üzrə:

2.10.1. adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

2.10.2. 79.1-ci maddədə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.11. 80-ci maddə üzrə:

2.11.1. 80.1-ci maddədə "teleradio verilişləri təşkilatının" sözləri "televiziya və radio yayımçısının" sözləri ilə əvəz edilsin;

2.11.2. 80.2-ci, 80.3-cü maddələrdə və 80.7-ci maddənin birinci cümləsində ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.11.3. 80.5-ci maddənin birinci cümləsində (hər iki halda) "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, "təşkilatların verilişlərinin" sözləri "yayımçıların proqramlarının" sözləri ilə və "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

2.11.4. 80.6-cı maddədə "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.11.5. 80.8-ci maddədə "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə, "teleradio verilişləri təşkilatlarına" sözləri "televiziya və radio yayımçılarına" sözləri ilə əvəz edilsin;

2.12. 81-ci maddə üzrə:

2.12.1. 81.1-ci maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, "teleradio verilişləri təşkilatı" sözləri "televiziya və radio yayımçısı" sözləri ilə əvəz edilsin;

2.12.2. 81.2-ci maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, dördüncü cümləsində "teleradio verilişləri təşkilatının" sözləri "televiziya və radio yayımçısının" sözləri ilə əvəz edilsin;

2.12.3. 81.4-cü maddənin birinci və ikinci cümlələrində, 81.5-ci maddədə (hər iki halda), 81.6-cı və 81.10-cu maddələrin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.12.4. 81.7.4-cü maddədə "teleradio verilişləri" sözləri "televiziya və radio proqramları" sözləri ilə, "verilişlərin proqramı, verilişin" sözləri "həmin proqramların cədvəli, proqramın" sözləri ilə əvəz edilsin;

2.13. 82-ci maddə üzrə:

2.13.1. 82.2-ci maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

2.13.2. 82.3-cü maddənin birinci cümləsində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

2.13.3. 82.4-cü maddənin birinci cümləsində (birinci halda) "teleradio" sözü "televiziya və radio" sözləri ilə, "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, ikinci cümləsində "Teleradio verilişləri təşkilatları" sözləri "Televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.14. 88-ci maddə üzrə:

2.14.1. 88.1-ci maddənin birinci cümləsində, 88.2-ci maddədə, 88.7-ci maddənin üçüncü cümləsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

2.14.2. 88.6-cı maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatlarının teleradio" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, ikinci cümləsində "teleradio verilişləri təşkilatlarının teleradio" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, "teleradio verilişləri təşkilatlarını" sözləri "televiziya və radio yayımçılarını" sözləri ilə əvəz edilsin;

2.14.3. 88.8-ci maddədə (hər iki halda) ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

2.15. 104.1-ci maddənin ikinci cümləsində "kütləvi informasiya vasitələri ilə" sözləri "media" sözü ilə əvəz edilsin;

2.16. 113.1-ci maddənin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin;

2.17. 127-ci maddə üzrə:

2.17.1. adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

2.17.2. 127.2-ci maddənin birinci cümləsində "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.17.3. 127.3-cü maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatının" sözləri "televiziya və radio yayımçısının" sözləri ilə əvəz edilsin;

2.17.4. 127.4-cü maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.18. 155-ci maddə üzrə:

2.18.1. adında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.18.2. 155.2-ci maddənin birinci cümləsində "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.18.3. 155.3-cü maddənin birinci cümləsində və 155.4-cü maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.19. 189-cu maddə üzrə:

2.19.1. adında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.19.2. 189.2-ci maddənin birinci cümləsində "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.19.3. 189.3-cü maddənin birinci cümləsində və 189.4-cü maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.20. 224-cü maddə üzrə:

2.20.1. 224.2-ci maddənin birinci cümləsində "Teleradio verilişləri təşkilatlarının" sözləri "Televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.20.2. 224.3-cü maddənin birinci cümləsində və 224.4-cü maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

2.21. 231.1-ci maddənin birinci və üçüncü cümlələrində, 231.2-231.4-cü maddələrdə, 231.6-cı maddənin birinci cümləsində və 233.4-cü maddədə ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612 (Cild I) 28.4-2-ci maddəsinin birinci abzasında "kütləvi informasiya vasitəsində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7) 86.0.10-cu, 87.1.21-ci və 90.1.3-cü maddələrində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18; Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 164.2-ci maddədə "teleradio verilişləri təşkilatlarının teleradio" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə əvəz edilsin;

5.2. 388-2.0.4-cü və 428.11-ci maddələrdə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 5-ci maddənin dördüncü hissəsində "kütləvi məlumat vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin;

6.2. 21-ci maddəyə aşağıdakı məzmunda doqquzuncu hissə əlavə edilsin:

"Dini qurumlar "Media haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız çap mediasının təsisçisi (iştirakçısı) ola bilərlər.".

**Maddə 7.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 230-cu maddənin üçüncü cümləsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

7.2. həmin Nizamnamənin "Qarovul otağının avadanlığı" 11 saylı əlavəsinin 2-ci maddəsinin birinci hissəsinin səkkizinci abzasında "radioverilişlərə" sözü "radio proqramlarına" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 489 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci maddənin birinci hissəsinin altıncı abzasında "efir, kabel, peyk televiziyası" sözləri "peyk, kabel yayımları" sözləri ilə əvəz edilsin;

8.2. 7-ci maddənin birinci hissəsində "efir və kabel televiziyası" sözləri "yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 62 (Cild I) 7-ci maddəsinin dördüncü hissəsinin birinci və ikinci cümlələrində "kütləvi informasiya vasitəsi" sözləri "media subyekti" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 28.4-cü maddənin ikinci abzasında "digər kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

10.2. 29.4-cü maddənin birinci abzasında "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 888 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 4-cü maddə üzrə:

11.1.1. 4.6-cı maddədə "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

11.1.2. 4.8-ci maddədə "bu Qanun, "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunları" sözləri "Media haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Qanun" sözləri ilə əvəz edilsin;

11.2. 6-cı maddə üzrə:

11.2.1. 6.0.2-ci maddədən "(verilişlər)" sözü çıxarılsın;

11.2.2. 6.0.5-ci maddədə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

11.2.3. 6.0.6-cı maddədə "verilişlərinin proqramını" sözləri "proqram cədvəlini" sözləri ilə əvəz edilsin;

11.3. 7-ci maddə üzrə:

11.3.1. 7.1.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.1.7. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1-ci maddəsində nəzərdə tutulmuş tələblərə riayət edilməsi;";

11.3.2. 7.1.10-cu maddədən "efirdə, kabel yayımı vasitəsilə" sözləri çıxarılsın;

11.3.3. 7.1.11-ci maddə ləğv edilsin;

11.3.4. 7.1.12-ci maddədən "(verilişlərdə)" sözü çıxarılsın;

11.3.5. 7.2-ci maddənin birinci cümləsində "verilişlər" sözü "proqramlar" sözü ilə, ikinci cümləsində (hər iki halda) "verilişlərin" sözü "proqramların" sözü ilə, "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

11.4. 9.1-ci maddədə "teleradio verilişlərinin" sözləri "televiziya və radio proqramlarının" sözləri ilə, "televiziya və radio yayımı haqqında qanunvericiliklə" sözləri "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" sözləri ilə əvəz edilsin;

11.5. 10.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

11.6. 11-1.1-ci maddədə "kütləvi informasiya vasitələri işçilərinin" sözləri "media sahəsində çalışan işçilərin" sözləri ilə əvəz edilsin;

11.7. 12.3-cü maddədə "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin;

11.8. 13-cü maddə üzrə:

11.8.1. 13.4-cü maddədə (hər iki halda) "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

11.8.2. 13.5-ci maddənin ikinci cümləsində "verilişlərin" sözü "proqramların" sözü ilə, "müvafiq dövlət orqanı" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin;

11.8.3. 13.10-cu maddənin birinci cümləsində (hər iki halda) "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

11.9. 14-cü maddə üzrə:

11.9.1. 14.1-ci maddədən "(verilişlərində)" və "(verilişlərin)" sözləri çıxarılsın;

11.9.2. 14.3-cü maddədə "veriliş" sözü "proqram" sözü ilə, "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

11.9.3. 14.4-cü maddədən "(verilişlərində)" sözü çıxarılsın və həmin maddədə "Televiziya və radio yayımı" sözləri "Media" sözü ilə əvəz edilsin;

11.10. 15-ci maddə üzrə:

11.10.1. 15.1-ci maddənin üçüncü cümləsindən "(verilişində)" sözü çıxarılsın;

11.10.2. 15.2-ci maddədə "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

11.10.3. 15.3-cü maddədə "verilişlərdə" sözü "proqramlarda" sözü ilə əvəz edilsin;

11.11. 18-ci maddə üzrə:

11.11.1. 18.1-ci maddədə "teleradio yayımında" sözləri "audiovizual media subyektində" sözləri ilə əvəz edilsin;

11.11.2. 18.4-cü maddədə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

11.12. 21.3-cü maddə üzrə:

11.12.1. 21.3.1-ci maddədə "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

11.12.2. 21.3.2-ci maddədə "verilişlər setkasının" sözləri "proqram cədvəlinin" sözləri ilə əvəz edilsin;

11.13. 24-cü maddə üzrə:

11.13.1. 24.3-cü maddədə "kütləvi informasiya vasitələri haqqında qanunvericiliklə müəyyənləşdirilmiş qaydada" sözləri "Media haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin;

11.13.2. 24.4-cü maddədə "verilişin" sözü "proqramın" sözü ilə əvəz edilsin.

**Maddə 12.** Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 690 (Cild I) ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın 3.1-ci maddəsinin ikinci abzasında "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208 (Cild I); Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanunu) 20.1.9-cu maddəsində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilsin.

**Maddə 14.** "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641 (Cild I) 12.1.10-cu, 15.2.7-ci, 30.3-cü maddələrində və 40.4-cü maddəsinin birinci cümləsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin.

**Maddə 15.** "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 642 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1.0.1-ci maddədə "yayım təşkilatlarının verilişlərinə" sözləri "audiovizual yayımçının proqramlarına" sözləri ilə əvəz edilsin;

15.2. 15.2-ci maddədə "efir və kabel televiziyası" sözləri "yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

**Maddə 16.** "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 2.0.11-ci maddədə "kütləvi informasiya vasitələri" sözləri "media məhsulları" sözləri ilə əvəz edilsin;

16.2. 3.1-ci maddədə "Televiziya və radio yayımı" sözləri "Media" sözü ilə əvəz edilsin;

16.3. 12-ci maddə üzrə:

16.3.1. 12.1.5-ci maddədə "kütləvi informasiya vasitələrində, teleradio proqramlarında (verilişlərində)" sözləri "media məhsullarında, o cümlədən televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

16.3.2. 12.1.8-ci maddədən "(verilişlərin)" sözü çıxarılsın;

16.3.3. 12.3-cü maddədə "teleradio proqramlarında və verilişlərində" sözləri "televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

16.4. 13-cü maddə üzrə:

16.4.1. 13.1-ci maddədə "elektron informasiya vasitələrində proqramın (verilişin)" sözləri "onlayn mediada proqramın" sözləri ilə əvəz edilsin;

16.4.2. 13.2-ci maddənin üçüncü cümləsindən "(verilişdə)" sözü çıxarılsın;

16.5. 20-ci maddə üzrə:

16.5.1. adında "Teleradio proqramlarında (verilişlərində)" sözləri "Televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

16.5.2. 20.1-ci maddədə "Teleradio proqramlarında (verilişlərində)" sözləri "Televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin və həmin maddədən "(verilişlərin)" sözü çıxarılsın;

16.5.3. 20.2-ci maddənin birinci cümləsində "Teleradio proqramı (verilişi)" sözləri "Televiziya və radio proqramı" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsindən "(verilişin)" sözü çıxarılsın;

16.5.4. 20.3-cü maddənin birinci cümləsində "verilişin" sözü "proqramın" sözü ilə, ikinci cümləsində "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

16.5.5. 20.4-cü maddənin birinci cümləsində "teleradio proqramlarında (verilişlərində)" sözləri "televiziya və radio proqramlarında" sözləri ilə, ikinci cümləsində "verilişlərdə" sözü "proqramlarda" sözü ilə əvəz edilsin;

16.5.6. 20.6-cı maddənin birinci cümləsində (hər iki halda) "verilişlər" sözü "proqramlar" sözü ilə, ikinci cümləsində "proqram və verilişlər" sözləri "proqramlar" sözü ilə əvəz edilsin;

16.5.7. 20.8-ci maddədə "teleradio proqramlarında (verilişlərində)" sözləri "televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

16.6. 27.1-ci maddə üzrə:

16.6.1. 27.1.6-cı maddədən "(verilişlərin)" sözü çıxarılsın;

16.6.2. 27.1.9-cu maddədə "teleradio proqramlarında (verilişlərində)" sözləri "televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

16.7. 32.6-cı maddənin birinci cümləsində "kütləvi informasiya, nəqliyyat vasitələrində" sözləri "nəqliyyat vasitələrində, mediada" sözləri ilə əvəz edilsin.

**Maddə 17.** "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 1997 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 11.2-ci maddənin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "media məhsullarında" sözləri ilə əvəz edilsin;

17.2. 12.3.2-ci maddədə və 17.5-ci maddənin birinci cümləsində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin.

**Maddə 18.** "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2244 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

18.1. 11.5-ci və 11.6-cı maddələrdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

18.2. 12-ci maddə üzrə:

18.2.1. adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

18.2.2. 12.1-ci maddədə "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə əvəz edilsin;

18.2.3. 12.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

18.2.4. 12.4-cü maddənin birinci cümləsində "verilişlər" sözü "proqramlar" sözü ilə, ikinci cümləsində (hər iki halda) "verilişlərin" sözü "proqramların" sözü ilə, "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin;

18.3. 14.1.4-cü maddədən "televiziya və" və "efirdə, kabel yayımı vasitəsi ilə" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2024-cü il*

# "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanı (Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 sentyabr tarixli 395 nömrəli Fərmanı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 10, maddə 640 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə"nin 3.1.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 581 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 423 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı yaradılmış səhmdar cəmiyyətlərinin və ixtisaslaşdırılmış çek investisiya fondlarının səhmdarlarının reyestrinin aparılması qaydaları haqqında" Əsasnamə"nin 5.6-cı bəndinin üçüncü abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 130 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 300 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə"nin 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü və səkkizinci abzaslarda "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

3.2. onuncu abzasda "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

3.3. on altıncı abzasda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 539 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"nin 25-3-cü hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 17-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 17.1-ci bəndin birinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

5.2. 17.2-ci bənddə "kütləvi informasiya" sözləri "media" sözü ilə əvəz edilsin;

5.3. 17.3-cü bənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

5.4. 17.4-cü və 17.6-cı bəndlərin birinci abzaslarında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisəsini özəlləşdirmə komissiyasının fəaliyyəti haqqında Əsasnamə"nin 3.1-ci bəndinin dördüncü abzasında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 3.1.35-ci yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "media subyektləri ilə və jurnalistlərlə" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2001-ci 4 iyul tarixli 529 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 466 (Cild I) ilə təsdiq edilmiş "Bələdiyyə sifarişlərinin verilməsi Qaydaları"nın 10-cu hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nın 2.3-cü bəndində və 6.2-ci bəndinin birinci abzasının birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481 (Cild I); 2024, № 3, maddə 257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

10.1. 7.3-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

10.2. 7.12-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

10.3. 9.21-ci bənddə "televiziya və radio yayımı kanallarından, digər kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 iyun tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 338 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının Maddi-texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondu haqqında Əsasnamə"nin 8-ci və 17-ci hissələrində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"nin 11.12-ci bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "media subyektləri ilə və jurnalistlərlə" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 485 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"nin 9.7-ci bəndi ləğv edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 577 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 6-cı hissənin birinci abzasında "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

14.2. 7-ci hissənin birinci abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

14.3. 13-cü hissənin birinci abzasının altıncı cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz olunsun və həmin cümləyə "nümayəndələri" sözündən sonra "və jurnalistlər" sözləri əlavə edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 22 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

15.1. 8.15-ci bənddə "və kütləvi informasiya vasitələrini" sözləri ", media subyektlərini və jurnalistləri" sözləri ilə əvəz edilsin;

15.2. 9.8-ci bənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək," sözləri çıxarılsın.

16. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 iyul tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 536 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Protokolunun Əsas Qaydaları"nın 3.11-ci bəndində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz olunsun və həmin bəndə "nümayəndələri" sözündən sonra "və jurnalistlər" sözləri əlavə edilsin.

17. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794 (Cild I); 2024, № 3, maddə 257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 7.13-cü bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri, jurnalistlər" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 aprel tarixli 31 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin 3.1-ci bəndinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 12.4-cü bəndindən "qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək," sözləri çıxarılsın.

20. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 31 oktyabr tarixli 307 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 916 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi haqqında Əsasnamə"nin 10.5-ci bəndində "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini və jurnalistləri" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

21.1. 2.1.9-cu yarımbənddə "kütləvi informasiya vasitələrinə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

21.2. 4.13-cü bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324 (Cild I); 2024, № 1, maddə 22) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 8.11-ci bəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 408 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 406 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə"nin 11.2-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri və jurnalistlər" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.11-1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 494 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, fövqəladə və ya hərbi vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nın 3-cü və 4-cü hissələrinin "Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü" sütununda "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 iyun tarixli 422 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 499 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi haqqında Əsasnamə"nin 11.2-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri və jurnalistlər" sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 32 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 9.20-ci bəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1058 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.12-ci bəndində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 98 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 48 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 15.2-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri və jurnalistlər" sözləri ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326 (Cild I); 2024, № 2, maddə 155) ilə təsdiq edilmiş Əlavə 2 - "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nın 13-cü hissəsinin "Qeydiyyata alınan əmlak növləri" sütununda "efir və kabel televiziyası" sözləri "yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

31. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I) ilə təsdiq edilmiş "Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi Qaydaları"nın 4.3-cü bəndinin beşinci abzasında, 4.4-cü və 6.2-ci bəndlərində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

32. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 sentyabr tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 864 (Cild I) ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyət qaydası haqqında Əsasnamə"nin 11-ci hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 sentyabr tarixli 628 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 866 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi"nin 12-ci hissəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1223 (Cild I) ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.3-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257) ilə təsdiq edilmiş II Əlavə - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.30-cu bəndindən "qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək," sözləri çıxarılsın.

36. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 84 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 229 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

37. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 327 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 8.1-ci bəndində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə və jurnalistlərə" sözləri ilə əvəz edilsin.

38. "Bir sıra kütləvi informasiya nəşrlərinin dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 114 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 426 (Cild I) 1.1-ci bəndində "kütləvi informasiya vasitələrinə" sözləri "çap mediası subyektlərinə" sözləri ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 427 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

39.1. 8.20-ci bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "media" sözü ilə əvəz edilsin;

39.2. 9.8-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 20 aprel tarixli 257 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 297 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi iqtisadi zonanın operatorunun seçilməsi üzrə müsabiqənin keçirilməsi Qaydaları"nın 2.1-ci bəndinin ikinci cümləsində "rəsmi dövlət kütləvi informasiya vasitələrində və xarici kütləvi informasiya vasitələrində" sözləri "dövlət və xarici media subyektləri vasitəsilə" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 624 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 aprel tarixli 39 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 3-cü hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 965 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın 1.3-cü bəndində "digər kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"nin 3.1.14-cü yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

44. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 aprel tarixli 28 nömrəli və 30 aprel tarixli 50 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.42-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 32 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

45.1. 3-cü hissə üzrə:

45.1.1. 3.14-cü bənddə "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri, jurnalistlər" sözləri ilə əvəz edilsin;

45.1.2. 3.14.1-ci və 3.14.3-cü yarımbəndlərdə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri, jurnalistlər" sözləri ilə əvəz edilsin;

45.2. 4-cü hissə üzrə:

45.2.1. 4.1.17-ci yarımbənddə "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə əvəz edilsin;

45.2.2. 4.6.13-cü yarımbənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

45.2.3. 4.14-cü bənddə "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə əvəz edilsin;

45.2.4. 4.14.2-ci yarımbənddə "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin, jurnalistlərin" sözləri ilə əvəz edilsin.

46. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 689 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin 7.12-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

47. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I) ilə təsdiq edilmiş Əlavə 1 - "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 3.1.8-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "mediada" sözü ilə əvəz edilsin.

48. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 oktyabr tarixli 709 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 948 (Cild I) ilə təsdiq edilmiş "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi"nin 4.1.9-cu yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

49. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 480 (Cild I) ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

49.1. 1.3-cü bənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri, jurnalistlər" sözləri ilə əvəz edilsin;

49.2. 3.0.8-ci yarımbənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

*Ardı 4-cü səh.*

# "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

49.3. 4.4-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

50. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 534 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 540 (Cild I) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nın 3.5-ci bəndində, 3.9-cu bəndinin ikinci cümləsində və 4.3-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

51. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə"nin 4.0.10-cu yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

52. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 avqust tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 912 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Nizamnaməsi"nin 7.17-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

53. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1124 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası"nın 1.3-cü bəndində "kütləvi informasiya vasitələrinə" sözləri "mediaya" sözü ilə əvəz edilsin.

54. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 655 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1127 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə"nin 4.8-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "mediada" sözü ilə əvəz edilsin.

55. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1351-IVQD nömrəli Qanununun tətbiqi və "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 277 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 20 noyabr tarixli 682 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1312 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

56. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.1.2-7-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri, jurnalistlər" sözləri ilə əvəz edilsin.

57. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 684 (Cild I) ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

57.1. 2.2.6-cı yarımbənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

57.2. 2.2.13-1-ci yarımbənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

58. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3.6-cı bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

59. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 978 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1074 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"nin 8.15-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

60. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) 5-ci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

61. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1368 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin 8.14-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

62. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1622 (Cild I) ilə təsdiq edilmiş "Xarici ölkələrə ixrac missiyalarının və Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

62.1. 4.1.5-ci yarımbənddə və 4.10.2-ci yarımbəndin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediasında" sözü ilə əvəz edilsin;

62.2. 4.10-cu bəndin birinci abzasında və 4.11-ci bəndin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediasında" sözü ilə əvəz edilsin;

62.3. 4.10.1-ci yarımbənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

63. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

63.1. 4.1-ci bəndin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

63.2. 4.3-cü bəndin birinci abzasında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

64. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1096 (Cild I) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

64.1. 1.3.6-cı yarımbənddə və 4.5-ci bəndin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

64.2. 2.4-cü bəndin birinci cümləsində "digər kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

65. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 64 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

65.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası" üzrə:

65.1.1. 3.15-ci bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin və jurnalistlərin" sözləri ilə, "kütləvi informasiya vasitələri ilə" sözləri isə "mediada" sözü ilə əvəz edilsin;

65.1.2. 3.16-cı bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

65.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin 5.9.23-cü yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

66. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 4.0.6-cı yarımbəndindən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövri mətbu orqan təsis etmək," sözləri çıxarılsın.

67. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1740 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2308 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

67.1. 1.1-ci bənddə və 3.1.3-cü yarımbənddə "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin;

67.2. 2.2.1-ci yarımbənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

67.3. 2.2.3-cü yarımbənddə "kütləvi informasiya orqanları" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

68. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.36-cı yarımbəndində "efir və kabel televiziyası" sözləri "yayım və retranslyasiya xidmətləri" sözləri ilə əvəz edilsin.

69. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1456 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Diasporuna Dəstək Fondunun Nizamnaməsi"nin 3.1.17-ci yarımbəndində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

70. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 323 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2236 (Cild I) 1-ci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

71. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

71.1. həmin Fərmanla təsdiq edilmiş "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi" üzrə:

71.1.1. 3.1.17-ci yarımbənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

71.1.2. 3.1.21-ci yarımbənddə "kütləvi informasiya vasitələri" sözləri "mediada" sözü ilə əvəz edilsin;

71.2. həmin Fərmanla təsdiq edilmiş "DOST" mərkəzlərində xidmət göstərilməsi Qaydası"nın 4.26.1-ci yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

72. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 234 (Cild I) ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

72.1. 3.0.16-cı yarımbənddə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

72.2. 4.0.7-ci yarımbənddə "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini və jurnalistləri" sözləri ilə əvəz edilsin.

73. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 may tarixli 701 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 853 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin 4.0.12-ci yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

74. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047 (Cild I) ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

74.1. 5.6.2-ci yarımbənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

74.2. 6.5.4-cü yarımbənddə "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

75. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I); 2024, № 3, maddə 257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 4.0.6-cı yarımbəndindən "müəyyən edilmiş qaydada dövri mətbu orqan təsis etmək," sözləri çıxarılsın.

76. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

76.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə" üzrə:

76.1.1. 3.0.91-ci yarımbənddə "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə əvəz edilsin;

76.1.2. 4.0.13-cü yarımbənddən "müəyyən olunmuş qaydada dövri mətbu orqan təsis etmək," sözləri çıxarılsın;

76.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında Əsasnamə" üzrə:

76.2.1. 3.0.5-ci yarımbənddə "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə əvəz edilsin;

76.2.2. 3.0.13-cü yarımbənddə "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin;

76.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında Əsasnamə"nin 3.0.33-cü yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

77. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

77.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"nin 4.0.11-ci yarımbəndindən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövri mətbu orqanın təsis edilməsi," sözləri çıxarılsın;

77.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi" üzrə:

77.2.1. 3.0.63-cü yarımbənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

77.2.2. 4.0.12-ci yarımbənddən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövri mətbuat orqanının təsis edilməsi," sözləri çıxarılsın;

77.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi"nin 4.0.12-ci yarımbəndindən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövri mətbu orqanın təsis edilməsi," sözləri çıxarılsın.

78. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 may tarixli 1018 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 543 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında vətəndaşların videoqəbulunun təşkili Qaydası"nın 2.1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

79. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"nin 5.9-cu bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

80. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın 79-cu hissəsində "verilişlərində" sözü "proqramlarında" sözü ilə əvəz edilsin.

81. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli 998 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 42 (Cild I) ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın 5.2.4-cü və 5.2.5-ci yarımbəndlərində "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

82. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1832 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın 5.3-cü bəndinin "Tədbirlərin adı" sütununda "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə və həmin bəndin "Gözlənilən nəticə" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə əvəz edilsin.

83. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 avqust tarixli 431 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1765 (Cild I) ilə təsdiq edilmiş "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə"nin 4.10-cu bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

84. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2106 (Cild I) ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın 6.5-ci bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

85. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 723 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

85.1. 4.4.3-cü yarımbənddə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

85.2. 4.4.11-ci yarımbənddə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

85.3. 5.1-ci bənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "media" sözü ilə əvəz edilsin.

86. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I); 2024, № 3, maddə 257) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 6.9-cu bəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrindən" sözləri "Mediadan" sözü ilə əvəz edilsin.

87. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsinin 3.3.7-ci yarımbəndinin 3-cü abzasının "Tədbirlər və layihələr" sütununda "KİV" akronimi "media" sözü ilə əvəz edilsin.

88. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 68 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planı"nın 3.1.2-ci yarımbəndinin "aralıq nəticələr" və "yekun nəticələr" sütunlarında "verilişi" sözü "proqramı" sözü ilə əvəz edilsin.

89. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1218 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın "8. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı" hissəsinin 8.4.3-cü yarımbəndinin "ilkin nəticələr" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

90. "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 25 aprel tarixli 207 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 9-10, maddə 163; Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 15 oktyabr tarixli 504 nömrəli Fərmanı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 761 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2024-cü il*

# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 14.8-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.8-1. Sosial müdafiəyə xüsusi ehtiyacı olan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir:

14.8-1.1. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər;

14.8-1.2. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvləri;

14.8-1.3. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;

14.8-1.4. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər;

14.8-1.5. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;

14.8-1.6. dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları;

14.8-1.7. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər;

14.8-1.8. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar.".

2. Aşağıdakı məzmunda 14.8-2-ci maddə əlavə edilsin:

"14.8-2. Bu Qanunun 14.8-1.3-cü, 14.8-1.5-ci və 14.8-1.6-cı (ali təhsil müəssisələrinə münasibətdə) maddələrində nəzərdə tutulmuş şəxslərin təhsil haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi təhsil xərcləri miqdarında ödənilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi və bəzi sərəncamlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14.8-2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "9.3-cü maddəsində" sözləri "9.3-cü, 14.8-2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bəndə "14.20-ci" sözlərindən əvvəl "14.8-2-ci maddəsində," sözləri əlavə edilsin.

4. "Dövlət ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 1308 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 451 (Cild I) ləğv edilsin.

5. "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 14 sentyabr tarixli 1722 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 821 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanı) ləğv edilsin.

6. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292 (Cild I) ləğv edilsin.

7. "Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli 1155 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 876 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanı) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2024-cü il*

# "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Seçki Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 3 iyun tarixli 875 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 281 (Cild I) 3-cü hissəsinin yeddinci və səkkizinci abzaslarında "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin.

2. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 141 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 905 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-1-ci bənddə "17.2.5-17.2.9-cu maddələrində nəzərdə tutulmuş təşkilatlar qruplarında" sözləri "17.2-ci maddəsində göstərilən təşkilatlardan (təşkilatlar qruplarından)" sözləri ilə və həmin bənddə "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin;

2.2. 3.2-ci bənddə "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin.

3. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 411-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 696 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 848 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2024-cü il*

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 3-cü maddəsinin ikinci hissəsinin beşinci abzası aşağıdakı redaksiyada verilsin:

"təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir;".

**Maddə 2.** "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 12-ci maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci abzasda "edilməklə" sözü "olmaqla" sözü ilə əvəz edilsin;

2.2. 6-cı bənddən "və tam dövlət təminatı şərtilə peşə təhsili müəssisələrində təhsil almaq" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 6-1-ci bənd əlavə edilsin:

"6-1. Təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir.".

**Maddə 3.** "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 213; 1995, № 9, maddə 177, № 14, maddə 241; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 21-ci maddəsinin ikinci hissəsi üçüncü hissə hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu Qanunun 3-cü maddəsinin birinci hissəsinin üçüncü abzasında nəzərdə tutulan şəxslər təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

**Maddə 4.** "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 392 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 6-cı maddəsinə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

"Məcburi köçkün statusu olan şəxslər təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.".

**Maddə 5.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I) 5-ci maddəsinin ikinci hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir.".

**Maddə 6.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152 (Cild I) 20-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 20.8-ci maddənin birinci abzasından "qrup" sözü və birinci halda "dövlət" sözü çıxarılsın;

6.2. aşağıdakı məzmunda 20.8.3-2-ci maddə əlavə edilsin:

"20.8.3-2. köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar;".

**Maddə 7.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I) 20.7-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"20.7. Əlilliyi olan şəxslər təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsi ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# Baş nazir Əli Əsədov Türkiyənin əmək və sosial müdafiə naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 30-da Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat İşıqhan ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. İki ölkə arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın Bakıda keçirilmiş 11-ci iclasının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı Azərbaycanın əmək və məşğulluq sahəsində dövlət siyasəti, ölkəmizdə aparılan ardıcıl sosial islahatlar barədə məlumat verilib. Postmüharibə dövründə şəhid ailələri və qazilərə sosial dəstək tədbirləri, o cümlədən onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və tibbi-sosial reabilitasiyası sahəsində aparılan işlər müzakirə olunub. Qazilərin müalicəsinə göstərilən dəstəyə görə Türkiyə tərəfinə təşəkkür ifadə edilib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov Ulyanovsk vilayətinin qubernatoru ilə görüşüb

**Mayın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Aleksey Russkix ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, tərəflər Azərbaycan-Rusiya strateji tərəfdaşlığının müxtəlif sahələrdə yüksək səviyyəsini vurğulayıblar, həmçinin Azərbaycan ilə Ulyanovsk vilayəti arasında səmərəli əməkdaşlıqdan məmnunluq ifadə ediblər.

Görüş əsnasında hər iki tərəf üçün maraq kəsb edən bütün istiqamətlər üzrə qarşılıqlı faydalı tərəfdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza firavanlıq, tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, 2024-cü il noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitinə dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Mən Sizin dəvətinizi məmnunluqla qəbul etmişəm və COP29-da iştirak etməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Aleksandr STUBB,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan vətəndaşlarını təbrik edirəm. Respublikanıza davamlı tərəqqi, firavanlıq və əmin-amanlıq arzulayıram.

Mən Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında möhkəm əlaqələri yüksək qiymətləndirirəm. Ölkəmizin ikitərəfli dialoqun daha da dərinləşdirilməsinə sadiq olduğunu bir daha təsdiq edirəm. Ehtiyac duyduğumuz anlarda yanımızda olduğunuzu həmişə xatırlayacağıq. Əminəm ki, birgə səylərimiz nəticəsində Moldova və Azərbaycan enerji, nəqliyyat, kənd təsərrüfatı, ticarət və investisiya kimi mühüm sahələrdə əməkdaşlığımızı genişləndirmək imkanlarından tam istifadə edəcək və nəticədə hər iki ölkə vətəndaşlarına fayda verəcəkdir.

Fürsətdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyinizi yüksək qiymətləndirirəm. Əminəm ki, bu tədbir Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha yaşıl gələcəyə kömək etmək istiqamətində birgə səylərimizi inkişaf etdirəcək.

Cənab Prezident, ən xoş arzularımı və yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına İrlandiya xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Qoy, gələcək illər Azərbaycan xalqına sülh, daha çox firavanlıq və xoşbəxtlik gətirsin!

*Hörmətlə,*

***Maykl HİGGİNS,***
***İrlandiyanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına daha çox rifah və tərəqqi, ölkələrimiz arasında mövcud olan sıx münasibətlərin qarşıdakı illərdə daha da möhkəmlənməsini arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri.

Dost ölkənizin milli bayramı - Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm əlaqələrin davamlı inkişafını diləyirəm.

Hörmətli cənab Prezident, Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasının dost xalqına davamlı tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Liviya Dövləti ilə Azərbaycan Respublikası arasında tarixi əlaqələrin dost xalqlarımızın müştərək mənafeyi naminə bütün sahələrdə inkişaf etdirilməsi üçün Sizinlə birgə əməkdaşlığa hazır olduğumu vurğulayıram.

Hörmətli cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirir, müdrik rəhbərliyinizlə dost Azərbaycan xalqının tərəqqisinə və firavanlığına yönələn səylərinizdə davamlı müvəffəqiyyətlər arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramını qəbul etmənizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd Yunis Əl-MƏNFİ,***
***Liviya Dövləti Prezident Şurasının Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Siz sülh, tərəqqi və xalqın firavanlığı üçün yorulmadan çalışdığınız bir vaxtda biz bu əlamətdar hadisəni və ölkənizin nailiyyətlərini qeyd etməkdə Azərbaycan xalqına qoşuluruq.

Qoy, Filippin və Azərbaycan arasında tərəfdaşlıq ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə inkişaf etməkdə davam etsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Ferdinand Romualdez MARKOS,***
***Filippin Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Sizi və ölkənizin vətəndaşlarını bütün kanadalılar adından təbrik edirəm.

Kanada Azərbaycanla əlaqələrini, eləcə də fəal Azərbaycan-Kanada icması tərəfindən qurulan xalqlararası münasibətləri möhkəmləndirməyi davam etdirmək əzmindədir. İkitərəfli müsbət əlaqələrimiz qadınların səlahiyyətlərinin artırılması, qlobal təhlükəsizlik və ətraf mühitin mühafizəsi kimi mühüm məsələlərlə bağlı birgə səylərimizlə daha da möhkəmlənir. Həmçinin Kanada demokratik inkişaf və rifah kimi dəyərlərin Cənubi Qafqazda sülhü möhkəmləndirəcəyinə qəti şəkildə inanır.

Kanada bu ilin sonunda Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbirini səbirsizliklə gözləyir. Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirməyə, həmçinin vətəndaşlarımız üçün daha yaxşı gələcək naminə birgə səy göstərməyə hazırdır.

Bu bayram münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Meri SAYMON,***
***Kanadanın General-Qubernatoru***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi, dost Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Səmimi-qəlbdən inanıram ki, Kamboca ilə Azərbaycan arasında əlaqələr qarşılıqlı maraq doğuran məsələlərdə, xüsusilə də dünyada sülh və təhlükəsizliyin təmin edilməsində daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

*Hörmətlə,*

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Peru hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar gündə Azərbaycan xalqının rifahı və firavanlığı ilə bağlı ən xoş arzularımı yetirirəm. Peru dövlətinin ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini möhkəmləndirməkdə maraqlı olduğunu vurğulayıram. Mən, həmçinin xalqlarımızı yaxınlaşdıracaq yeni qarşılıqlı maraq sahələrini müəyyənləşdirmək istəyimi ifadə edirəm.

Fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirərəm.

***Dina Ersilia Boluarte ZEQARRA,***
***Peru Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına firavanlıq və davamlı inkişaf arzulayıram.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Sizinlə işləməyə hazır olduğumu və Zati-alinizə yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Bassiru Diomaye FAYE,***
***Seneqal Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Prezident.

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə cansağlığı, rifah, qardaş ölkənizə və onun xalqına isə daha çox tərəqqi və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin dövlətiniz sosial-iqtisadi inkişaf üzrə böyük uğurlar qazanıb və beynəlxalq arenada nüfuzunu ardıcıl şəkildə möhkəmləndirir.

Arzu edirəm ki, ölkəniz gələcəkdə də inkişaf etməkdə davam etsin və yüksək məqsədlərə nail olsun.

Ümidvaram ki, Qazaxıstanla Azərbaycan arasında qarşılıqlı anlaşmaya əsaslanan strateji tərəfdaşlıq xalqlarımızın maraqları naminə davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və xoşbəxtlik arzulayıram.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi 28 May - Müstəqillik Günü münasibətilə Türk Dünyası Mediatorlar Birliyi və bütün türkdilli dövlətlərin mediatorları adından təbrik edirəm. Sizin sayənizdə Can Azərbaycanımız ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək tarixi nailiyyət qazandı.

Sizin andiçmə mərasimində söylədiyiniz "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir. İndi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" sözləriniz bizi səmimi-qəlbdən duyğulandırdı və Türk Dünyası Mediatorlar Birliyinin fəaliyyəti üçün böyük bir motivasiya oldu. Qalib ölkənin Lideri kimi söylədiyiniz bu sözlər bizim üçün strateji yol xəritəsidir və əsas fəaliyyət xəttimizi müəyyən edir. Bu gün bütün Türk dünyası mediatorlarının sevə-sevə təkrarladığı bu sözlər bizim üçün böyük bir şüardır. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Sizin Türk dünyası, türk dövlətləri ailəsi üçün müəyyən etdiyiniz strateji xətt bundan sonra yüz illər boyu böyük işlərin həm təməli, həm də davamıdır.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə dərin minnətdarlığımızı bildirirəm. Gördüyünüz böyük işlər özündən sonra milyonlarla yol, cığır açır. Biz Türk Dünyası Mediatorlar Birliyi olaraq Türk dünyası yolunda cızdığınız xətlə peşə istiqamətimiz üzrə addımlayırıq.

Azərbaycanın suverenliyinin və müstəqilliyinin əsas atributlarından biri olan ərazi bütövlüyünün Sizin komandanlığınızla bərpa olunması azərbaycanlı qardaşlarımızın qürur duyduğu çox önəmli tarixi hadisədir. Sizinlə bütün Türk dünyası qürur duyur.

Sizi bir daha səmimi-qəlbdən təbrik edir və fəaliyyətinizdə yeni uğurlar diləyirik.

*Hörmətlə,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin***
***İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident.

Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin bütün üzvləri adından Sizə Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi çatdırırıq.

2008-ci ildə təsis ediləndən etibarən Mərakeş-Azərbaycan Dostluq Cəmiyyəti Azərbaycanın əsas tarixi hadisələrini qeyd etmək, ölkə ilə bağlı həqiqətləri geniş ictimaiyyətə çatdırmaq istiqamətində səylərini əsirgəməmişdir. Cəmiyyətimiz, həmçinin müxtəlif sahələrdə ikitərəfli münasibətləri inkişaf etdirmək, hazırkı və gələcək nəsillərimiz arasında əlaqələri möhkəmləndirmək işinə töhfə verməkdə davam edir.

Cənab Prezident, bu bayram münasibətilə Sizə ən xoş arzularımızı bildirir, Azərbaycana sülh, tərəqqi və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Məhəmməd FƏQİRİ,***
***Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 284 **QƏRAR** Bakı şəhəri, 27 may 2024-cü il

## “Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları”nın təsdiq edilməsi haqqında

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 285 **QƏRAR** Bakı şəhəri, 27 may 2024-cü il

## “Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 286 **QƏRAR** Bakı şəhəri, 29 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği”nin təsdiq edilməsi barədə” 2018-ci il 27 aprel tarixli 180 nömrəli və “Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqının məbləği”nin təsdiq edilməsi barədə” 2018-ci il 24 iyul tarixli 327 nömrəli qərarlarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 27 aprel tarixli 180 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 825 (Cild I) ləğv edilsin.

2. "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqının məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2018-ci il 24 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1660 (Cild I) ləğv edilsin.

3. Bu Qərar 2024-cü il iyunun 3-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 287 **QƏRAR** Bakı şəhəri, 29 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli1 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501 (Cild I); 2024, № 3, maddə 330; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 may tarixli 268 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bənddə "Nazirliyin Bakı Şəhəri üzrə Təhsil İdarəsi, regional təhsil idarələri" sözləri "Nazirliyin yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yerli bölmələri və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. 4.1-ci bənddə "Nazirliyin Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və regional təhsil idarələrinə və təhsil müəssisələrinə" sözləri "Nazirliyin yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin.

3. 5.4-cü bənddə "tədris ilinin sonunda" sözləri "ildə yeni tədris ili başlayanadək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 289 **QƏRAR** Bakı şəhəri, 29 may 2024-cü il

## “Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 3 fevral tarixli 759 nömrəli və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1657-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 28 avqust tarixli 826 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 15 dekabr tarixli 2397 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 4.3-cü bəndindən "Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 288 **QƏRAR** Bakı şəhəri, 29 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 avqust tarixli 321 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin (sertifikatlaşdırmanın nəticəsinə görə) vəzifə maaşlarına aylıq əlavələr”də dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 avqust tarixli 321 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 1008 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Dövlət ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin (sertifikatlaşdırmanın nəticəsinə görə) vəzifə maaşlarına aylıq əlavələr"in cədvəlinin ikinci sütununda "Dövlət ümumi təhsil müəssisələrində tədris edilən dərs saatına görə (faizlə)" sözləri "Tədris edilən dərs saatına görə (faizlə)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 290 **QƏRAR** Bakı şəhəri, 29 may 2024-cü il

## “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 124 nömrəli Qərarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.4-cü bəndinin və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2023-cü il 31 yanvar tarixli 2008 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 oktyabr tarixli 336 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1407 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası"nın 3.1.4-cü yarımbəndindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin yarımbənddə "və "Terrorçuluğa qarşı mübarizə haqqında" sözlərindən əvvəl ", "Hədəfli maliyyə sanksiyaları haqqında" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1408 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"nın 3.1.5-ci yarımbəndindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın, həmin yarımbəndə "və "Terrorçuluğa qarşı mübarizə haqqında" sözlərindən əvvəl ", "Hədəfli maliyyə sanksiyaları haqqında" sözləri əlavə edilsin.

3. "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2148 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissədə "2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci" sözləri "2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası" üzrə:

3.3.1. adında "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.2. 1-ci hissə üzrə:

3.3.2.1. 1.1-ci bənddə (hər iki halda) "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.2.2. 1.2-ci bənddə "Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri "Öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.2.3. 1.3-cü bəndin birinci cümləsində "monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.3. 2-ci hissə üzrə:

3.3.3.1. 2.1.1-2.1.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.1. öhdəlik daşıyan şəxslər - cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək öhdəliyi olan maliyyə institutları, eləcə də qeyri-maliyyə institutları və peşə sahibləri;

2.1.2. maliyyə institutları - "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - ƏL/TMM Qanunu) 1.1.8-ci maddəsində nəzərdə tutulan şəxslər;

2.1.3. qeyri-maliyyə institutları və peşə sahibləri - ƏL/TMM Qanununun 1.1.9-cu maddəsində nəzərdə tutulan şəxslər;";

3.3.3.2. aşağıdakı məzmunda 2.1.3-1-ci yarımbənd əlavə edilsin:

"2.1.3-1. benefisiar mülkiyyətçi - ƏL/TMM Qanununun 1.1.19-cu maddəsində nəzərdə tutulan şəxs;";

3.3.3.3. 2.1.6-cı yarımbənddə "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.4. 3-cü hissə üzrə:

3.3.4.1. adında "Monitorinq iştirakçıları" sözləri "Maliyyə institutları" sözləri ilə əvəz edilsin;

3.3.4.2. 3.1-ci bənddə "Monitorinq iştirakçılarına" sözləri "Maliyyə institutlarına" sözləri ilə əvəz edilsin;

3.3.4.3. 3.1.1-ci yarımbənddə "münasibətlər" sözü "münasibətlərin" sözü ilə əvəz edilsin;

3.3.4.4. 3.1.2-ci yarımbənddə "on beş" sözləri "iyirmi" sözü ilə, ikinci halda "bundan" sözü "limitdən" sözü ilə əvəz edilsin;

3.3.4.5. 3.1.3-3.1.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.3. maliyyə vəsaitlərinin elektron köçürülməsi və virtual aktivlərlə əməliyyatların aparılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq maliyyə vəsaitlərinin birdəfəlik elektron köçürülməsindən və virtual aktivlərlə aparılan birdəfəlik əməliyyatlardan əvvəl;

3.1.4. əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;

3.1.5. əldə edilmiş məlumat və sənədlərin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda.";

3.3.4.6. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. ƏL/TMM Qanununun 4.5.2-ci və 4.6-cı maddələrinə uyğun olaraq, yüksək riskli müştəriləri prioritetləşdirməklə müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədlərin yenilənməsi, habelə müştəri hüquqi şəxs və ya xarici hüquqi təsisat olduqda həyata keçirilən əlavə müştəri uyğunluğu tədbirlərinin tətbiqi zamanı benefisiar mülkiyyətçi barədə məlumatlar məlumat saxlayıcısı tərəfindən sorğu əsasında maliyyə institutlarına verilir.";

3.3.5. 4-cü hissə üzrə:

3.3.5.1. adında "Monitorinqdə iştirak edən digər şəxslər" sözləri "Qeyri-maliyyə institutları və peşə sahibləri" sözləri ilə əvəz edilsin;

3.3.5.2. 4.1-ci bənddə "monitorinqdə iştirak edən digər şəxslərə" sözləri "qeyri-maliyyə institutları və peşə sahiblərinə" sözləri ilə əvəz edilsin;

3.3.5.3. 4.1.1-ci yarımbənd ləğv edilsin;

3.3.5.4. 4.1.2-ci və 4.1.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1.2. rieltorlar daşınmaz əmlakın alqı-satqısı üzrə əməliyyatlar apardıqda;

4.1.3. notariuslar, vəkillər, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər aşağıdakı əməliyyatları apardıqda və ya bu cür əməliyyatların aparılmasında iştirak etdikdə:

4.1.3.1. daşınmaz əmlakın alqı-satqısı;

4.1.3.2. müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması;

4.1.3.3. müştərinin bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması;

4.1.3.4. hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkili, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı.";

3.3.6. 5-ci hissə üzrə:

3.3.6.1. adında "Monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər" sözləri "Öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.6.2. 5.1-ci bənddə və 5.2-ci bəndin birinci cümləsində "Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri "Öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.6.3. 5.3-cü və 5.4-cü bəndlərdə "monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.6.4. 5.5-ci bənddə "monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.6.5. 5.6-cı bənddə "monitorinq iştirakçılarının" sözləri "maliyyə institutlarının" sözləri ilə, "monitorinqdə iştirak edən digər şəxslərin" sözləri isə "qeyri-maliyyə institutları və peşə sahiblərinin (notariuslar istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

3.3.6.6. 5.7-ci bənddə "monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər" sözləri "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin;

3.3.7. 6-cı hissə üzrə:

3.3.7.1. 6.1-ci bənddə "Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri "Öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin və həmin bənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

3.3.7.2. 6.2-ci bənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin bənddə "6-cı" sözləri "16-cı" sözləri ilə, "monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər" sözləri isə "öhdəlik daşıyan" sözləri ilə əvəz edilsin.

4. "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 568 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Zəngilanda "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda konfrans keçirilib

**Mayın 30-da Zəngilanda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransı işə başlayıb.**













AZƏRTAC xəbər verir ki, konfrans ölkəmizin üzləşdiyi mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina və müharibənin digər partlayıcı qalıqları ilə çirklənmənin ətraf mühitə təsirini azaltmaq üçün maliyyə resurslarının səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədi daşıyır.

Tədbirə beynəlxalq ictimaiyyət tərəfindən yüksək diqqət göstərilir. Konfransda ümumilikdə 75 ölkədən 300-dən çox nümayəndə iştirak edir. İştirakçılar arasında bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, BMT-nin baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmilərinin, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri iştirak edirlər.

Konfrans mina partlayışı nəticəsində zərər çəkmiş **Tamam Cəfərovanın** mina qurbanları adından dünya ictimaiyyətinə müraciəti ilə başlayıb.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi **Vahid Hacıyev** tədbirdə çıxış edərək bildirib ki, beynəlxalq konfransın Zəngilanda işə başlamasının böyük rəmzi mənası var. Zəngilanın Ağalı kəndi yenidən qurulan və keçmiş məcburi köçkünlərin qayıtdıqları ilk yaşayış məskənidir. Bu miqyasda işlərin aparılması məhz minaaxtaranların gərgin əməyi sayəsində həyata keçirilir, insanların təhlükəsizliyi təmin edilir və minaların ətraf mühitə təsiri azaldılır.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub *(Müraciət qəzetin bugünkü nömrəsində dərc olunub)*.

Prezidentin köməkçisi dünyanın üzləşdiyi mina probleminin ətraf mühitə təsiri məsələlərinin müzakirəsi məqsədilə bir araya gələn konfrans iştirakçılarına təşəkkür edib, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri **Vüqar Süleymanov** ölkəmizin üzləşdiyi mina probleminin təsirinin aradan qaldırılmasına beynəlxalq dəstəyin artırılmasının zəruriliyini diqqətə çatdırıb. O qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizin 10 min 285 kvadratkilometri mina və partlamamış hərbi sursatlarla müxtəlif səviyyələrdə çirklənmiş hesab olunur. Vüqar Süleymanov kənd təsərrüfatı, əkinçilik üçün münbit torpaqların, eyni zamanda saysız-hesabsız heyvan və bitki növlərinin, çaylar, göllər, bulaqlar, kəhrizlər və su quyularının mina və müharibənin digər partlayıcı qalıqları ilə ciddi şəkildə çirklənməsi, habelə minaların mənfi təsirinin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

BMT Baş katibinin köməkçisi, BMT-nin İnkişaf Proqramının Avropa və Müstəqil Dövlətlər Birliyi üzrə Regional Bürosunun direktoru **İvana Jivkoviç** nitqində minatəmizləmə fəaliyyətinin ətraf mühitin bərpası və milli inkişaf proqramları ilə inteqrasiyasının vacibliyini vurğulayıb. Bildirib ki, minaların ətraf mühitə təsirini azaltmaq missiyası yalnız partlayıcı sursat problemini aradan qaldırmaq deyil, eləcə də gələcək nəsillər üçün təhlükəsiz həyat, kənd təsərrüfatı və biomüxtəlifliyin təmin edilməsidir. Başlıca məqsəd zərərçəkmiş torpaqları inkişaf edən ekosistemlərə və davamlı icmalara çevirməkdir.

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti **Muxtar Babayev** konfransda videomüraciətlə çıxış edərək bildirib ki, COP29-un məqsədlərinə uyğun olaraq, biz iqlim davamlılığı məsələlərini minatəmizləmə və yenidənqurma səylərimizə inteqrasiya etməyə çalışırıq. Hədəfimiz işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası yaratmaqdır. Ekosistemləri bərpa etməklə və dayanıqlı təcrübələri yenidən tətbiq etməklə biz bu torpaqları "yaşıl zona"ya çevirməyi hədəfləyirik.

Konfrans mina probleminin dayanıqlı həll yollarının müəyyənləşdirilməsi və hamı üçün daha təhlükəsiz gələcəyi təmin etmək üçün ətraf mühitin mühafizəsinin təbliği ətrafında aparılan müzakirələr və söhbətlərlə davam edib.

Beynəlxalq konfransın açılış günündə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və BMT-nin İnkişaf Proqramı arasında niyyət bəyannaməsi imzalanıb.

Sənədi agentliyin İdarə Heyətinin sədri Vüqar Süleymanov və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Roccasalvo imzalayıblar.

Niyyət bəyannaməsi Azərbaycan Respublikası ərazisində Mina fəaliyyəti ilə əlaqədar Mükəmməllik Mərkəzinin yaradılmasında əməkdaşlığı ehtiva edir. Mərkəz mina təhlükəsi ilə mübarizə sahəsində milli, regional və beynəlxalq səviyyələrdə təlim və bacarıqların artırılması, sertifikatlaşdırma və biliklərin ötürülməsini həyata keçirəcək, habelə humanitar minatəmizləmə sahəsində ən son texnologiya və metodologiyaları təkmilləşdirmək üçün minalarla mübarizədə tədqiqat və innovasiyaları təşviq edəcək. Mərkəzin yaradılması Azərbaycanın mina təhlükəsi ilə mübarizə imkanlarını artırmaq və minasız dünya üçün qlobal səylərə töhfə vermək niyyətinin göstəricisidir. Bu təşəbbüs Azərbaycanın həm milli, həm də beynəlxalq istəklərinə uyğun olaraq sülh, təhlükəsizlik və davamlı inkişafa, regional və qlobal əməkdaşlığa sadiqliyini əks etdirir.

Sonra konfrans iştirakçıları Zəngilan məscidində olublar. Məlumat verilib ki, Zəngilanda inşa olunan məscidin təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub. Məscidin binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb. İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Sərgi Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrimizə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirir. Burada işğalın ən ağır fəsadlarından biri kimi bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən islam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb.

Konfrans iştirakçıları daha sonra Zəngilan rayonunun Ağalı kənd meydanına gəliblər. Sonra Ağalı kənd tam orta məktəbin şagirdlərinin rəqsinə baxan iştirakçılar məktəbdə yaradılan şəraitlə tanış olublar.

Qonaqlar həmçinin minatəmizləmə prosesini izləyib və Azərbaycanın bu sahədəki fəaliyyəti haqqında məlumatlandırılıb.

Konfrans işini mayın 31-də Bakıda davam etdirəcək.

# Torpaqlarımızın minalardan təmizlənməsi üçün beynəlxalq ictimaiyyətin dəstəyi lazımdır

**Ermənistanın otuz ilə yaxın davam etmiş işğalına 2020-ci ildə 44 günlük Vətən müharibəsində son qoyuldu. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək ölkəmizin ərazilərini işğaldan azad etdi. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri nəticəsində isə bütün Qarabağ bölgəsi işğalçı ölkənin silahlı qüvvələrinin tör-töküntülərindən və separatçılardan təmizləndi. Suverenliyimiz tam bərqərar edildi.**

Vətən müharibəsi başa çatdıqdan qısa müddət sonra işğaldan qurtulmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərimizdə genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanıldı. Hazırda bu proses uğurla davam etdirilir. Uzun illər doğma yurdunun həsrətini çəkmiş keçmiş məcburi köçkünlər tədricən yenidən qurulan yaşayış məskənlərinə geri dönür, yeni tikilmiş evlərində könül rahatlığı ilə yaşamağa başlayırlar. Ancaq bu möhtəşəm işlər asanlıqla icra edilmir. Prosesin həyata keçirilməsində ən böyük əngəllərdən biri isə Ermənistan tərəfindən yalnız otuz ilə yaxın davam etmiş işğal müddətində deyil, hətta Vətən müharibəsindən sonra da basdırılmış minalardır.

İşğaldan azad edilmiş və hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilən ərazilərimizdən olan Zəngilan şəhərində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə keçirilən ənənəvi beynəlxalq humanitar minatəmizləmə konfransında bu barədə danışılıb. Mayın 30-31-də "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransının ilk günü bu şəhərdə - Zəngilanda baş tutdu. Respublikamızın mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina və müharibənin digər partlayıcı qalıqları ilə çirklənmənin ətraf mühitə təsirini azaltmaq üçün maliyyə resurslarının səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədilə təşkil olunan beynəlxalq tədbirə ümumilikdə 75 ölkədən 300-dən çox nümayəndə qatılıb. Bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, BMT-nin baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmilərinin, eləcə də ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri konfransda təmsil olunublar.

Tədbir dünya ictimaiyyətinə mina partlayışı nəticəsində zərər çəkmiş Tamam Cəfərovanın mina qurbanları adından müraciəti ilə başlayıb. Konfrans iştirakçılarını salamlayan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bu beynəlxalq tədbirin Zəngilanda işə başlamasının böyük rəmzi məna daşıdığını diqqətə çatdırıb. Qeyd edilib ki, Zəngilanın Ağalı kəndi yenidən qurulan və keçmiş məcburi köçkünlərin qayıtdığı ilk yaşayış məskənidir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə diqqətə çatdırılıb ki, bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir, müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur. Vurğulanıb ki, mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə, yaşamaq hüququnu sual altına qoymaqla bərabər ətraf mühitə də böyük ziyan vurur.

Azərbaycan dünyada minalanmadan ən çox əziyyət çəkən ölkədir. Ərazisinin 12 faizi minalarla və partlamamış sursatlarla çirklənib. Bu, kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir.

Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində Azərbaycanın 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkdiyi və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında olduğu vurğulanıb: "Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə, 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib".

Müraciətdə bu faktlar da nəzərə çatdırılıb: "Müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir". Qeyd olunub ki, mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir: "2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür", - deyə müraciətdə qeyd olunub.

Dövlət başçısının müraciətində minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaratdığı, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törətdiyi vurğulanıb: "Ölkəmiz humanitar minatəmizləmə fəaliyyətini, demək olar ki, tam şəkildə öz resursları hesabına həyata keçirir. Minaların humanitar fəsadlarının aradan qaldırılması, torpaqların minalardan təmizlənməsi üçün beynəlxalq ictimaiyyətin adekvat siyasi və praktiki dəstəyi mühüm əhəmiyyət kəsb edir"

Müraciətdə Azərbaycanın öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış etdiyi də diqqətə çatdırılıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Milli Məclisdə "Fransız Polineziyasının dekolonizasiya hüququ - çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib




**Mayın 30-da Milli Məclisdə "Fransız Polineziyasının dekolonizasiya hüququ - çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli konfrans iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayaraq tədbirin işinə uğurlar arzulayıb.

Milli Məclis Sədrinin birinci müavini Azərbaycan dövlətinin və xalqının neokolonializm siyasətinə qarşı hər zaman ciddi müqavimət göstərdiyini diqqətə çatdırıb. O, Azərbaycan Respublikasının xüsusilə Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin bu problemlə bağlı beynəlxalq səviyyədə apardığı müzakirələrin vacibliyini vurğulayıb. Nəzərə çatdırıb ki, Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir.

Qeyd olunub ki, son dövrlər BMT Baş Assambleyası çərçivəsində bir sıra müsbət qərarlar qəbul edilib. BMT Baş Assambleyasının 17 may 2013-cü il tarixli "Fransız Polineziyasının öz müqəddəratını təyinetmə" adlı qətnaməsində bu xalqın öz müqəddəratını təyin etməsi və müstəqillik qazanması onun əsas hüququ kimi göstərilib. Bu qətnamənin qəbulu Maohi Nui dövlətinin və "Tavini Huiraatira" Partiyasının nümayəndələrinin apardığı əzmkar mübarizinin nəticəsidir. Lakin bu koloniyaların Fransız əsarətindən hələlik tam azad olmadığı təəssüflə bildirilib. Bugünkü konfransın əsas mövzusunun da bu problemlərin həlli yollarına yönəldiyi söylənilib. Qeyd edilib ki, BMT Baş Assambleyasının digər sənədində kolonializmə görə təzminat məsələsi öz əksini tapıb. Burada müstəmləkəçiliyin vurduğu ziyana görə təzminat və kompensasiya hüququ təmin edilib.

Diqqətə çatdırılıb ki, beynəlxalq hüquqda dövlətlərin hərbi cinayətlərə, soyqırımı aktlarına və insanlığa qarşı cinayətlərə görə məsuliyyət nəzərdə tutulur. Lakin müstəmləkə və postkolonial dövrünün cinayətlərinə görə beynəlxalq hüquqda məsuliyyətə cəlb edilmək üçün yüksək məhkəmə həddini aşmaq lazımdır. Vurğulanıb ki, Fransa uzun illər qeyri-insani rəftar nümayiş etdirərək adalarda 200-ə yaxın nüvə sınaqları keçirib və Maohi Nui xalqı bundan çox böyük əziyyət çəkib. BMT Baş Assambleyasının müvafiq qətnaməsində də nüvə sınaqlarının sağlamlığa və ətraf mühitə mənfi təsiri məsələsi öz əksini tapıb. BMT Nizamnaməsinə və Baş Assambleyanın qətnamələrinə görə bu gün artıq Maohi Nui xalqı öz müqəddəratını təyinetmə hüququna malikdır. Bu məsələdə Azərbaycan daim ədalətin və Maohi Nui xalqının yanındadır.

Sonra konfransda çıxış edən Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri, "Tavini Huiraatira" Partiyasının Baş katibi Viktor Maamaatuaiahutapu xalqının və təmsil etdiyi partiyanın öz məqsədlərinə çatmaq üçün göstərdiyi səylərdən bəhs edib. O, Fransanın BMT qətnamələrinə məhəl qoymadığını, nüvə sınaqlarını davam etdirmək istədiyini bildirib. Ölkəsinin təcrid olunduğunu bildirən qonaq xalqının səsini geniş ictimaiyyətə çatdırmaq üçün yaradılan imkana görə Azərbaycan Respublikasına təşəkkürünü ifadə edib. Viktor Maamaatuaiahutapu siyasi baxımdan gənc xalq olduqlarını və ədalətin bərpası üçün Azərbaycanın dəstəyinə ehtiyac duyduqlarını vurğulayıb.

Konfransda çıxış edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov müasir dövrdə kolonizasiya siyasətinin hələ də davam etdiyini, müstəmləkə altında olan müxtəlif xalqların hüquqlarının pozulduğunu bildirib. Deputat bildirib ki, qlobal dekolonizasiyanın əhəmiyyətini dünya miqyasında təsdiq edən BMT Baş Assambleyasının 14 dekabr 1960-cı il tarixli "Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməsi qəbul edilsə də, onun həyata keçirilməsi hələ də təmin edilməyib. Fransız Polineziyasında mövcud vəziyyət bunun bariz nümunəsidir. Fransız Polineziyasında keçirilən nüvə sınaqları nəticəsində 100 mindən çox insanın zərər gördüyünü deyən deputat, Fransa dövlətinin yalnız 2010-cu ildə nüvə sınaqlarının qurbanlarına kompensasiya üzrə komissiya yaratdığını və 2022-ci ilədək 454 sakinə kompensasiya verdiyini və onlardan yalnız 63 nəfərin polineziyalı olduğunu söyləyib. Bildirilib ki, 1996-cı ildə Fransa Polineziyası BMT-nin dekolonizasiya edilməli ərazilər siyahısından çıxarılaraq bu siyahıya 2013-cü ildə yenidən daxil edilib. Beynəlxalq sənədlərə və yerli xalqın azadlıq mübarizəsinə baxmayaraq, Fransa bu gün də Polineziyada öz müstəmləkəçilik siyasətini davam etdirir. N.Səfərov Azərbaycanın Fransız Polineziyasına dair mövqeyinin beynəlxalq hüquqa, ədalət prinsiplərinə, xalqların öz müqəddəratını təyinetmə hüquqlarına əsaslandığını bildirib.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov müstəmləkəçiliklə üzləşən xalqların problemlərini geniş ictimaiyyətə çatdırmaq məqsədilə bir sıra beynəlxalq konfranslar keçirdiklərini diqqətə çatdırıb. O, Fransanın BMT tərəfindən dekolonizasiya ilə bağlı keçirilən tədbirləri hər dəfə boykot etdiyini söyləyib. Bakı Təşəbbüs Qrupu ilə "Tavini Huiraatira" Partiyası arasında əməkdaşlıq haqqında memorandum imzalandığını deyən icraçı direktor ölkəmizin müstəmləkəçilikdən azad olmaq istəyən xalqların hər zaman yanında olduğunu bildirib.

Sonra tədbirdə Milli Məclisin komitə sədrləri Səməd Seyidov, Ziyafət Əsgərov, Zahid Oruc, Fazil Mustafa çıxış edərək Azərbaycan dövlətinin və xalqının humanizm və ədalətlilik prinsiplərinə əsaslanaraq Fransanın kolonializm siyasətinə qarşı mübarizə aparan ölkələrə dəstək verdiyini bildiriblər. Çıxışlarda vurğulanıb ki, hər zaman sülh tərəfdarı olan bir ölkə kimi Azərbaycan müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni həmişə dəstəkləyib, bu istiqamətdə öz səylərini əsirgəməyib, Qoşulmama Hərəkatının sədri qismində müstəmləkəçiliyə qarşı mübarizədə öz prinsipial mövqeyini nümayiş etdirib.

Fransa Polineziyası nümayəndə heyətinin üzvləri Marania Vaianui, Klif Lusan, Tevaipaea Hoiore, Lüdovik Vanie, Heinui Lö Kay, Mariel Kohumoetini, Morea Mamatuaiahutapu Fransanın müstəmləkəçilik siyasəti ilə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün yaradılan şəraitə görə təşəkkürlərini bildiriblər. Fransanın Polineziya xalqını siyasi, iqtisadi, mənəvi, mədəni sahələrdə öz təsiri altında saxladığını, onun təbii sərvətlərini mənimsədiyini söyləyiblər. Mövcud problemlərin müzakirəsi üçün beynəlxalq səviyyədə təşəbbüslərin irəli sürülməsinin, birgə əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Qonaqlar ölkəmizin Fransız Polineziyasının müstəmləkəçilikdən azad olması uğrunda mübarizəsini müdafiə etdiyinə görə öz minnətdarlığını ifadə ediblər, bu istiqamətdə göstərilən səyləri yüksək qiymətləndiriblər.

Konfransın sonunda çıxış edən Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri, "Tavini Huiraatira" Partiyasının Baş katibi Viktor Maamaatuaiahutapu diqqətə çatdırıb ki, 40 il əvvəl müstəqillik uğrunda mübarizədə onlar kiçik bir qrup idilər. Bu kiçik qrupla və məhdud imkanlarla torpaqlarını onların əllərindən alan böyük qüvvəyə qarşı mübarizə aparırdılar. O bildirib ki, həmin dövrdə, sadəcə olaraq, "fransız deyiləm" demək həbsə atılmaq üçün kifayət edirdi. Bu yolda dəfələrlə zindanlara atılmağa, aclıq və səfalətlə üzləşməyə baxmayaraq, hər zaman amallarına sadiq qaldılar. Çünki bilirdilər ki, bu, onların haqqıdır, hüququdur və həqiqət, ədalət onların tərəfindədir. Bu da mübarizəni davam etdirməyə güc verirdi.

Viktor Maamaatuaiahutapu vurğulayıb ki, apardıqları mübarizə xalqlarının mövcudluğu uğrunda savaşıdır: "Biz Fransadan, sadəcə, xalqımızın yaşamaq hüququnu tələb edirik, haqq səsimizi çatdırmağa çalışırıq. Bu gün Fransa hələ də bizi eşitmək, dinləmək istəmir, bizi təhdid, qorxu və təzyiq altında saxlayır. Halbuki özü insan haqlarından, demokratiyadan danışır. Lakin biz artıq buna inanmırıq. Ona görə də biz buradayıq və inanırıq ki, ədalətə nail olmaq üçün dostların təcrübəsi və dəstəyi ilə Maohi Nui xalqı öz azadlıq mübarizəsini sonadək davam etdirəcək".

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli müzakirələrə yekun vuraraq Azərbaycan dövlətinin və xalqının Fransız Polineziyasının hüquqlarının qorunmasında və müstəqillik uğrunda mübarizəsində öz dəstəyini davam etdirəcəyini bildirib.

Konfransda Milli Məclisin deputatları, aidiyyəti qurumların nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

# Maohi Nuinin (Fransız Polineziyasının) nümayəndə heyəti Milli Məclisdə olub



**Mayın 30-da Viktor Mamatuaiahutapunun başçılıq etdiyi Maohi Nuinin (Fransız Polineziyasının) nümayəndə heyəti Milli Məclisdə olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə nümayəndə heyəti Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra parlamentin foyesində Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsi barədə qonaqlara məlumat verilib.

Nümayəndə heyəti ilə görüşdə Milli Məclis Sədrinin birinci müavini, Hüquq və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli parlamentin Sədri Sahibə Qafarovanın adından qonaqları səmimi salamlayaraq Azərbaycan dövlətinin beynəlxalq aləmdə neokolonializm siyasətinə qarşı daim barışmaz mövqe nümayiş etdirdiyini bildirib.

Müstəmləkəçiliyə qarşı mübarizənin Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü xarici siyasətin tərkib hissəsi olduğunu deyən Əli Hüseynli vurğulayıb ki, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə neokolonializmə qarşı güclü koalisiya yaratmağa, müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların azadlıq mübarizəsinə dəstək göstərilməsinə nail olub.

Görüşdə Maohi Nuinin fransız müstəmləkəçiliyinə qarşı apardığı ardıcıl mübarizəyə dəstək ifadə olunub, Azərbaycan dövlətinin və xalqının daim bu ölkənin yanında olduğu, onun azadlıq mübarizəsini dəstəklədiyi diqqətə çatdırılıb.

BMT Baş Assambleyasının 17 may 2013-cü il tarixli "Fransız Polineziyasının öz müqəddəratını təyinetmə" adlı qətnaməsinin Maohi Nui xalqının öz müqəddəratını təyinetmə və müstəqillik əldə etmək hüququnu tanımasını təqdir edən birinci vitse-spiker deyib ki, təəssüf ki, beynəlxalq hüquqi mexanizmlər mükəmməl olmadığından, keçmiş və indiki koloniyalar fransız əsarətindən tam azad ola bilmirlər.

Qeyd edilib ki, neokolonializm siyasəti həyata keçirən ölkələrin önündə bu gün Fransa gəlir. Fransa Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal siyasətini də yaxından dəstəkləyib. Torpaqlarımızın erməni işğalından azad olunması barədə danışan birinci vitse-spiker deyib ki, Vətən müharibəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə münaqişə ilə bağlı BMT TŞ-nin 4 qətnaməsinin icrasına nail olub.

Görüşdə Fransanın müstəmləkəçilik keçmişindən danışan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd edib ki, bu ölkə ikiüzlü siyasət aparmaqla, öz çirkin əməllərini demokratiya, insan hüquqlarının müdafiəsi adı altında ört-basdır etməyə çalışır. O bir zamanlar Azərbaycanın da işğaldan əziyyət çəkdiyini, ağır məhrumiyyətlərlə üzləşdiyini vurğulayıb. Bildirib ki, XXI əsrdə Fransanın müstəmləkəçilik siyasətinə son qoyulmasının vaxtı çoxdan çatıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Maohi Nui nümayəndə heyətinin başçısı Viktor Mamatuaiahutapu ölkəmizə səfərini əlamətdar adlandırıb.

Fransanın əsrlər boyu həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində ölkəsində demokratiyanın boğulduğunu, insan hüquqlarının kobud şəkildə pozulduğunu deyən qonaq bildirib ki, Fransa Maohi Nuinin müstəqillik əldə etmək istiqamətində apardığı mübarizəyə əngəllər törətməyə davam edir, dialoqdan qaçır. O qeyd edib ki, Fransa bütün vasitələrlə bu cəhdlərin qarşısını almağa müvəffəq olsa da Maohi Nui xalqı öz azadlıq mübarizəsini sonadək davam etdirəcək.

Söhbət zamanı Azərbaycan dövlətinə, onun rəhbərliyinə və xalqına Maohi Nui xalqına göstərdikləri dəstəyə görə dərin təşəkkür bildirilib. Qeyd olunub ki, səfər çərçivəsində keçirilən görüşlər, aparılan danışıqlar, həmçinin geniş fikir mübadiləsi ölkəsinin əsrlərdir məruz qaldığı fransız müstəmləkəçilik siyasətinə qarşı mübarizədə əhəmiyyətli rol oynayacaq.

Görüşdə parlament Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov, Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Maohi Nui (Fransız Polineziyası) nümayəndə heyətinin ölkəmizə səfərinə həsr olunmuş mətbuat konfransı



**Mayın 30-da Milli Məclisdə Maohi Nui (Fransız Polineziyası) nümayəndə heyətinin ölkəmizə səfərinə həsr olunmuş mətbuat konfransı keçirilib.**

Maohi Nui nümayəndə heyətinin rəhbəri, Tavini Huiraatira Partiyasının baş katibi Viktor Mamatuaiahutapu Azərbaycana səfərləri zamanı göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, keçirilən görüşlər və tədbirlər barədə təəssüratlarını bölüşüb.

Viktor Mamatuaiahutapu və Fransız Polineziyası Assambleyasının Büdcə və maliyyəyə nəzarət komissiyasının sədri Morea Mamatuaiahutapu jurnalistlərin suallarını cavablandırıblar.

Qonaqlar XXI əsrdə neokolonializmdən əziyyət çəkən ölkələrdən biri olan Maohi Nuinin dekolonizasiya istiqamətində atdığı addımlar, apardığı mübarizə barədə məlumat veriblər, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinə verdiyi dəstəyə görə Azərbaycan hökumətinə və Bakı Təşəbbüs Qrupuna öz təşəkkürlərini bildiriblər.

Onlar bu gün Bakıda, Milli Məclisdə "Fransız Polineziyasının dekolonizasiya hüququ - çağırışlar və perspektivlər" mövzusuna həsr edilmiş konfransın nəticələrini yüksək qiymətləndiriblər, tədbirin yekunları və müzakirə olunan məsələlərin önəmi barədə verilən suallara münasibət bildiriblər.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov jurnalistlərin suallarına cavabında bildirib ki, Azərbaycanın müstəmləkəçilik əsarəti altında olan xalqların dekolonizasiya mübarizəsinə dəstək verməsi beynəlxalq hüquqa, BMT-nin qətnamələrinə, Qoşulmama Hərəkatının ana prinsiplərinə əsaslanır. Abbas Abbasov Fransız Polineziyasının dekolonizasiya hərəkatının da beynəlxalq hüququn norma və prinsiplərinə, BMT-nin sənədlərinə uyğun olduğunu vurğulayıb.

Mətbuat konfransında Azərbaycanın neokolonializmdən əziyyət çəkən ölkələrə beynəlxalq hüquq çərçivəsində dəstəyinin davam edəcəyi bildirilib, dənizaşırı ölkələrin COP29-da iştirakı ilə bağlı danışıqların aparıldığı diqqətə çatdırılıb.

# YAP nümayəndə heyəti ICAPP Biznes Şurasının və Daimi Komitəsinin iclaslarında iştirak edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti 27-30 may tarixlərində Tailand Krallığı Milli Assambleyasının evsahibliyi ilə bu ölkənin Banqkok şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Biznes Şurasının 2-ci və Daimi Komitəsinin (DK) 41-ci iclaslarında iştirak edib.**








Mayın 27-də YAP nümayəndə heyəti Tailandın Toplantı və Sərgi Bürosunun və Fəxri Konsullar Assosiasiyasının adından verilən şam yeməyinə qatılıb.

Mayın 28-də 19 ölkədən 22 siyasi partiya və 38 biznes qurumunun iştirakı ilə "Ərzaq təhlükəsizliyi və turizmin təşviqi" mövzusunda keçirilən Biznes Şurası iclasının açılış mərasimində qurumun bürosunun yeni tərkibi müəyyənləşib. ICAPP DK-nın üzvü Tahir Budaqov siyasi partiyaların və biznes mühitinin nümayəndələrindən təşkil olunan 8 nəfərdən ibarət büroya yekdilliklə sədr müavini qismində üzv seçilib.

Daha sonra "Ərzaq təhlükəsizliyi"nə həsr olunmuş birinci plenar sessiyada çıxış edən YAP Gənclər Birliyinin və Milli Məclisin Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Səbinə Xasayeva dünyada artan silahlı münaqişələrin və getdikcə özünü daha qabarıq göstərən iqlim dəyişikliyinin qlobal miqyasda ərzaq və qida təhlükəsizliyinə ciddi təhdidlər yaratdığını qeyd edib. O vurğulayıb ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini birmənalı olaraq qəbul edir və ölkəmizin bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına, yəni COP 29-a evsahibliyi etməsi bunun təsdiqidir.

"Qlobal emissiyalardakı payının çox cüzi olmasına baxmayaraq, Azərbaycan qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə çox aktiv fəaliyyət göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti ölkənin 2020-ci ildə işğaldan azad edilmiş əraziləri - Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib",- deyən S.Xasayeva iqlim dəyişikliyinə qarşı mübarizə səylərinin sadəcə istixana qazı emissiyalarını azaltmaq və qlobal istiləşməni məhdudlaşdırmaq niyyətini güdmədiyini, həm də ərzaq təhlükəsizliyinə müsbət təsir etmək məqsədi daşıdığını vurğulayıb.

İclasın "Turizmin təşviqi" adlı ikinci plenar sessiyasında çıxış edən ICAPP Biznes Şurasının üzvü, "Millennium Turizm & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru Ruslan Quliyev turizmin təhlükəsizlik və qonaqpərvərliklə sıx bağlı olduğunu, dünyada geosiyasi mübarizənin və hərbi münaqişələrin kəskinləşməsi fonunda təhlükəsiz turizm mühiti təqdim edən Azərbaycanın 2020-ci ildə özünün ərazi bütövlüyünü təmin etməklə bütövlükdə Cənubi Qafqaz regionunda davamlı sülh və təhlükəsizlik üçün əlverişli zəmin yaratdığını bildirib. Onun sözlərinə görə, təhlükəsizliklə yanaşı, Azərbaycan turistlərə xalqımızın çoxəsrlik tolerantlıq, multikulturalizm ənənələrinə söykənən qonaqpərvərlik mədəniyyəti və sürətlə inkişaf edən turizm infrastrukturu təqdim edir.

"Şərq ilə Qərb, Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycan uzun illər ərzində müxtəlif beynəlxalq siyasi, iqtisadi və humanitar tədbirlərə uğurla evsahibliyi edir",- deyən R.Quliyev bu baxımdan MDB ölkələri arasında ilk olaraq Azərbaycanda keçiriləcək və dünyanın hər yerindən on minlərlə iştirakçını bir araya gətirəcək COP-a evsahibliyinin ölkəmizin turizm imkanlarını reallaşdırmaq və genişləndirmək üçün hökumətə və iş adamlarına yeni fürsətlər təqdim edəcəyini, tədbirin keçirilməsindən əldə ediləcək zəngin təcrübənin isə Azərbaycanın turizm sənayesinin inkişafına növbəti illərdə də öz təsirini göstərəcəyini bildirib. Azərbaycanın geniş turizm imkanlarından bəhs edən R.Quliyev ölkəmizin artıq dünyada yeni turizm istiqaməti kimi tanındığını xüsusi qeyd edib.

İclasın sonunda aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Banqkok bəyanatı qəbul edilib.

Həmin gün YAP Sədrinin müavini Tahir Budaqov ICAPP DK-nın 41-ci iclasında da iştirak edib. İclasda ICAPP-ın son 6 ayda gördüyü işlərə nəzər salınıb, qurumun cari və gələcək fəaliyyətinə dair ətraflı fikir mübadiləsi aparılıb.

DK iclası çərçivəsində ICAPP-ın baş katibi Kvon He-seoq ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev tərəfindən iki qurum arasında müşahidəçilərin mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.

Mayın 29-da iştirakçıların paytaxt Banqkokda keçirilən "THAIFEX - Anuga Asia 2024" beynəlxalq qida və içki sərgisinə ziyarəti təşkil olunub, stendlərə baxış keçirilib.

Daha sonra iştirakçıların Tailand parlamentinin binasına ekskursiyası təşkil olunub, qonaqlara ölkənin ali qanunvericilik orqanı haqqında ətraflı məlumat verilib.

Nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri Pakistanda səfərdədir





Mayın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidentinin vəzifələrini icra edən, Senatın sədri Sayed Yusuf Raza Gilani ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və Pakistan strateji tərəfdaşlığından irəli gələn məsələlərlə yanaşı, regional və beynəlxalq vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dost və qardaş Pakistana rəsmi səfəri zamanı göstərilən qonaqpərvərliyə görə təşəkkür edən nazir ölkələrimiz arasında bu kimi səfər və təmasların mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Azərbaycan və Pakistan arasında zəngin ikitərəfli, o cümlədən regional və beynəlxalq platformalar çərçivəsində çoxtərəfli əməkdaşlıq gündəliyinin uğurlu inkişafının məmnunluq doğurduğu qeyd olunub. Xüsusilə müdafiə, iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, turizm kimi sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin, habelə inkişaf üçün potensialın mövcudluğu vurğulanıb.

Dövlətlərimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığa hər iki ölkənin parlamentləri arasında mövcud əlaqələrin və təmasların töhfə verdiyi diqqətə çatdırılıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində qarşılıqlı dəstək və fəaliyyət məmnunluqla qeyd olunub.

Bununla yanaşı, digər müxtəlif regional çoxtərəfli formatlarda əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Postmünaqişə dövründə mövcud regional vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıran Ceyhun Bayramov keçmiş münaqişə zamanı, habelə hazırkı şəraitdə göstərilən siyasi və mənəvi dəstəyə görə Pakistana təşəkkür edib.

İşğaldan azad olunmuş ərazilərdə hazırda görülən genişmiqyaslı bərpa işləri, habelə Azərbaycan və Ermənistan arasında aparılan normallaşma və sülh danışıqlarından bəhs edən nazir ölkəmizin hər iki istiqamət üzrə fəaliyyətinin regional sülh və sabitliyə hesablandığını diqqətə çatdırıb.

Ceyhun Bayramov eyni zamanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və danışıqlar prosesi barədə qarşı tərəfi məlumatlandıraraq iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq imkanlarını yüksək qiymətləndirdiyimizi bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Mayın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Pakistana rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Şahbaz Şərif ilə görüşüb.

Görüş zamanı tərəflər Azərbaycanla Pakistan arasında mövcud strateji əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, yüksəksəviyyəli qarşılıqlı səfərlərin, habelə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin önəmini vurğulayıblar. Həmçinin iqtisadiyyat, ticarət, enerji, turizm, təhsil, elm və mədəniyyət, nəqliyyat, eləcə də müdafiə sahəsində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Tərəflər hökumətlərarası iqtisadi komissiyanın iclaslarının mütəmadi əsasda keçirilməsinin önəminə diqqət çəkərək, ikitərəfli iqtisadi münasibətlərin, xüsusilə də enerji və qarşılıqlı sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə toxunublar.

Bununla yanaşı, Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq formatının bütün istiqamətlər üzrə fəaliyyətinin gücləndirilməsinin qarşılıqlı faydalı əməkdaşlığa xüsusi töhfə verməklə yanaşı, hər üç ölkənin regional və qlobal mövqelərinin möhkəmlənməsinə xidmət edəcəyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov bu il ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni əməkdaşlıq sahələri üçün əlverişli imkan yaratdığını vurğulayıb.

Görüşdə gündəlikdə duran digər aktual məsələlər və qarşılıqlı maraq kəsb edən ikitərəfli və çoxtərəfli mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# COP29 dünyanın "yaşıl"laşmasına xidmət edən mühüm tədbir olacaq

**Məlumdur ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) olduqca mühüm tədbirdir və məqsədi də qlobal səviyyədə iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması yollarını müzakirə etməkdir. Bu yönümdə yaranmış problemlərin həllini tapmaq üçün noyabrda dünya liderləri, iqlim mütəxəssisləri, ətraf mühit müdafiəçiləri və digər maraqlı tərəflər Bakıda bir araya gələcək, "yaşıl enerji"yə gedən yolları tapmağa çalışacaqlar.**

Hər kəs razılaşar ki, fövqəladə təbiət hadisələrinin artması ilə yaranan iqlim dəyişikliyinə qarşı mübarizə indiki kimi vacib olmayıb. Dünya ciddi iqlim problemləri ilə üz-üzədir. Bu da öz növbəsində yer kürəsində ciddi ekoloji problemlər yaradır. Vəziyyətdən çıxış yolu kimi bərpaolunan enerji olan "yaşıl enerji"yə keçid göstərilir.

Mütəxəssislərin hesablamalarına görə, 2030-cu ilə qədər bərpaolunan mənbələrdən ucuz elektrik enerjisi dünya elektrik enerjisinin 65 faizini təmin edə bilər. Bu, 2050-ci ilə qədər enerji sektorunu 90 faiz karbonsuzlaşdırmalı, karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaltmalıdır. Bu baxımdan Azərbaycan özünün "yaşıl enerji" strategiyasını günün tələbləri səviyyəsində həyata keçirir. Qarabağın və Şərqi Zəngəzurun, eləcə də Naxçıvan Muxtar Respublikasının "yaşıl zona" elan edilməsi yolunda görülən işlər bunu sübut edir. Prezident İlham Əliyev aprelin 26-da Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentindəki çıxışında vurğulamışdı: "Bizim "yaşıl gündəliyimiz" COP-dan əvvəl də inkişaf edirdi. Biz xarici tərəfdaşlarımızla nəhəng "yaşıl keçid" layihələrinə başlamışıq. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Təkcə bu il 1300 meqavat həcmində külək və günəş enerjisi layihələri həyata keçiriləcək".

Prezdentin də dediyi kimi, Azərbaycanın ekoloji siyasətinin ana xəttini "yaşıl enerji"ni özündə ehtiva edən ətraf mühitin və təbii sərvətlərin qorunması təşkil edir. Ona görə də "Yaşıl dünya naminə həmrəylik ili"nin COP29-un müzakirələrinə töhfə verəcəyi şübhə doğurmur. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub və strateji dəyişikliyin gündəliyində dayanıb. Həmin strateji dəyişiklik iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal çağırış və enerji probleminin həlli ilə uyğun gəlir.




Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 2021-ci il fevralın 2-də imzaladığı müvafiq sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiqlənib. Sərəncamda 2030-cu ilə qədər ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet müəyyənləşdirilib. Onlardan biri Azərbaycanı "yaşıl enerji" ölkəsinə çevirməyə nail olmaqdır. Bəhs olunan "yaşıl enerji"yə "yaşıl işıq" yandırarkən, ilk növbədə ölkənin geniş imkanları əsas götürülüb. Respublikanın əlverişli coğrafi iqlim xüsusiyyətləri alternativ və bərpaolunan enerji mənbələrindən, o cümlədən günəş, külək, su resurslarından geniş istifadəyə münbit zəmin yaradır. Belə münbit zəmin yerlərindən biri Qarabağ və Şərqi Zəngəzurdur. 44 günlük Vətən müharibəsindəki şanlı zəfərdən az sonra bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyası hazırlanmağa başlandı.

Prezident İlham Əliyev bu istiqamətdə çıxışlarının birində demişdir: "Azad edilmiş torpaqlarda, eyni zamanda böyük enerji potensialı var. Bəri başdan demək istəyirəm ki, mən azad edilmiş əraziləri "yaşıl enerji" zonası kimi görmək istərdim. Kifayət qədər imkanlar var. Qarabağ bölgəsi "yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq". İlham Əliyev bu əraziləri elə-belə, gəlişi gözəl "söz" olsun deyə "yaşıl zona" elan etməyib. Prezidentin söylədiyi fikirlərin kökündə Qarabağın və Şərqi Zəngəzurun əlverişli coğrafi şəraiti və iqlim xüsusiyyətləri, həmçinin alternativ bərpaolunan enerji mənbələrindən istifadə üçün əlverişli şəraitin olması dayanır.

Madam ki, COP kimi qlobal bir qurum iqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmağa çalışır, o zaman dünya ölkələri həmin məsuliyyətin çəkisini yaxşı bilməlidirlər. Bəşəriyyətin çiyninə götürdüyü ekoloji məsuliyyəti indiki qlobal mənzərə göz önünə gətirir və daha da artırır. Məsələyə məhz bu kontekstdən yanaşsaq deməliyik ki, COP29-un iştirakçıları olan hər bir dövlət özünün coğrafi mövqeyinin üstünlüklərindən, yaxud da fərqliliklərindən çıxış edərək məqbul təkliflər verməlidir.

Gizli deyil ki, "Şərq-Qərb" nəqliyyat dəhlizi üzərində yerləşən Azərbaycan BMT-nin çağırışlarına fəal şəkildə qoşulan dövlətlər sırasında yer alır, regionun və özünün karbohidrogen məhsullarının Avropa bazarına çıxarılması imkanlarını genişləndirir, həmçinin alternativ enerji potensialını yüksək dəyərləndirərək onu maksimum artırmağa çalışır. Bununla belə, Azərbaycanı malik olduğu neft-qaz sərvətindən dolayı mühakimə edənlər də var. Prezident İlham Əliyev "Euronews" telekanalına verdiyi müsahibəsində üzünü bələlərinə tutaraq müəyyən məqamlara aydınlıq gətirib: "Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir". Amma COP29-un Azərbaycanda keçirilməsinə qısqanclıqla yanaşanlar da bilirlər ki, ölkəmizin "yaşıl enerji" sahəsindəki fəaliyyəti BMT də daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanla Qazaxıstan arasında korrupsiyaya qarşı mübarizə sahəsində memorandum imzalanıb





**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Qazaxıstan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumağalinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, Fəxri xiyabanı ziyarət edən qonaqlar xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər.

Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Baş Prokurorluqda keçirilən ikitərəfli görüşdə baş prokuror tarixi, mədəni və dini ortaqlıqlar olan ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin birgə siyasi səylərinin nəticəsi olduğunu vurğulayıb.

Kamran Əliyev dövlət başçısının siyasi iradəsi və rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli qabaqlayıcı tədbirlər, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığını qeyd edərək, Füzuli şəhərində Qazaxıstanın təşəbbüsü ilə inşa olunan və bu ilin martın 12-də hər iki dövlət başçısının iştirakı ilə istifadəyə verilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin qardaş dövlətin işğaldan azad edilmiş torpaqlarda fəaliyyətinin bariz nümunəsi olduğunu bildirib.

Həmçinin bu ilin noyabrında dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, habelə sentyabrın 29-dan oktyabrın 2-dək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının Azərbaycanda keçiriləcəyi barədə məlumat verilib.

Asxat Jumağali rəhbərlik etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib. Ölkəmizin korrupsiya ilə mübarizə sahəsində təcrübəsindən bəhs edən qonaq bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin faydalı olacağını vurğulayıb.

Görüşdə Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel iştirak edib.

Baş prokuror Kamran Əliyev və Qazaxıstanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumağali ölkələrimiz arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalayıblar.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Milli Məclisdə görüş



**Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev və parlamentin bir qrup deputatı mayın 30-da Şimali Kipr Türk Respublikasının təhsil naziri Nazım Çavuşoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonaqları salamlayan Bəxtiyar Əliyev ölkələrimizin qanunverici orqanlarında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılmasının əhəmiyyətindən söz açıb, parlamentarilərimizin qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin əlaqələrimizin daha da genişlənməsinə xidmət etdiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində söylədiyi nitqində bizim türk dünyasından başqa ailəmizin olmadığı ilə bağlı dediyi fikirlərinə diqqəti yönəldən komitə sədri türk dövlətləri arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən parlamentlər səviyyəsində inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Nazım Çavuşoğlu qardaş Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etməsindən qürur və sevinc duyduqlarını bildirib, Vətən müharibəsində şəhid olanlara rəhmət, qazilərə cansağlığı diləyib. Azərbaycan və Şimali Kipr xalqlarının taleyinin oxşar olduğunu deyən qonaq vurğulayıb ki, müəyyən şərtlər altında uzun illər bir-birimizdən ayrı qalsaq da artıq buna son qoyulub və bundan sonra Türkiyə, Azərbaycan və Şimali Kipr olaraq bütün sahələrdə əlaqələrimizi inkişaf etdirməliyik.

Sonra Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycan-Şimali Kipr Türk Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupun yaradılmasının əhəmiyyətini qeyd edib, cari ayda Milli Məclisin nümayəndə heyətinin Şimali Kiprə səfərindən və burada keçirilən görüşlərdən danışıb, qarşılıqlı əlaqələrin gələcək perspektivləri ilə bağlı fikirlərini bölüşüb.

Milli Məclisin Elm və təhsil komitəsi sədrinin müavini Musa Quliyev, parlamentin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədov türk dövlətləri arasında əməkdaşlığın möhkəmləndirilməsində parlament diplomatiyasının əhəmiyyətindən danışıblar, bu əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

Söhbətdə ölkələrimiz arasında siyasi, mədəni, humanitar, xüsusən elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub, tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# 14 ölkədən xarici QHT-lər Azərbaycanın COP29 fəaliyyətini alqışlayan bəyanat yayıb

**ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq, COP29-a evsahibliyi edən ölkəmizə güclü dəstək ifadə ediblər.**

AZƏRTAC Azərbaycan Milli QHT Forumuna istinadla həmin müraciətin mətnini təqdim edir:

"Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları və ictimai fəallar 2024-cü ilin noyabrında Azərbaycanın paytaxtı Bakıda keçiriləcək COP29-un vacibliyini vurğulayırıq. Bu tədbir böyük gözləntilər daşıyır.

COP29-a evsahibliyi edən Azərbaycanın bütün səslərin eşididildiyi, perspektivlərin nəzərdən keçirildiyi və inklüziv nəticələrin təmin edilməsi üçün birgə səylərin səfərbər olunduğu inklüziv mühitin yaradılmasına sadiqlik nümayiş etdirir.

İnklüziv və birgə iqlim fəaliyyətinin tərəfdarları kimi, biz QHT-lərin COP29-da iştirakının vacib əhəmiyyətinə qəti şəkildə inanırıq.

QHT-lər öz icmaları ilə dərin əlaqələri olan maraqlı tərəflər kimi çıxış edərək COP29-da müzakirə və qərar qəbuletmə proseslərini zənginləşdirən özünəməxsus fikir, təcrübə və perspektivlər təklif edir. Onların iştirakı iqlim böhranını həll etmək üçün kollektiv öhdəliyi gücləndirərək sahiblənmə, məsuliyyət və həmrəylik hissini gücləndirir.

Planetimiz üçün ümidli gələcəyə dəstək səylərində Azərbaycan Milli QHT Forumu, COP29-un sədrliyi və Azərbaycan ilə həmrəy olduğumuzu bəyan edirik.

**İmzalar:**

1. Peter Qorgiyevski - Global Dialoq Forumunun rəhbəri, Avstraliya;
2. Giyorqi Tatar - Dialoq və Kütləvi Zorakılıqların Qarşının Alınması üzrə Budapeşt Mərkəzinin rəhbəri, Macarıstan;
3. Emma Maklennan - EEAST Təhlükəsiz və Davamlı Nəqliyyat üçün Şərq Alyansının prezidenti, Böyük Britaniya;
4. Nixil Aziz - Amerika Yəhudilərinin Dünya Xidmətinin nümayəndəsi, ABŞ;
5. Dr. David Apollus - Across Atlantik İnkişaf Təşkilatının Baş İcraçı Direktoru, Böyük Britaniya (ECOSOC statuslu təşkilat);
6. Edda Guiberti - Tripla Difesa O.N.L.U.S təşkilatının prezidenti, İtaliya (ECOSOC statuslu təşkilat);
7. Evelyn Bisona Fonkem - Aztəminatlıların Rifahı Assosiasiyasının nümayəndəsi, (ECOSOC statuslu təşkilat);
8. Adetola Ojeniyi - Böyük Britaniya və Afrika İnkişaf və Tədqiqat Mərkəzinin nümayəndəsi - Böyük Britaniya (ECOSOC statuslu təşkilat);
9. İanna Mallayka Foundation - Niderland (ECOSOC statuslu təşkilat);
10. Bencamin Yu - El Pozo de Vida təşkilatının nümayəndəsi, Meksika;
11. Aleksiya Klaydon - QHT eksperti, Böyük Britaniya;
12. Frensis Niba - Vətəndaş Təbliğatı Koalisiyasının nümayəndəsi, Böyük Britaniya;
13. Patricia Haydeger - Avropa Ətraf Mühit Bürosunun nümayəndəsi, Belçika;
14. Katalin Hartviq - QHT eksperti, Almaniya;
15. Feliks Masi - "Səssiz Uşaqlar" təşkilatının təsisçisi, ABŞ
16. Nyanq Miçel - ekspert, ABŞ;
17. Sana Ullah - Pakistan Gənclər Təşkilatının rəhbəri, Pakistan;
18. Nik Nvolisa - Gənclərlə iş üzrə ekspert, Nigeriya
19. Mayk Handkok - "Circle of Excellence Group"un rəhbəri, Avstraliya;
20. Peter Mousaferiadis - "Cultural Infusion" təşkilatının rəhbəri, Avstraliya;
21. Əbdülməjid Əmrani - Batna Universitetinin professoru, Əlcəzair;
22. Hassina Hemamid - Batna Universitetinin professoru, Əlcəzair;
23. Şehnazz Nadirşah - Meher Roşani Fondunun və Qlobal Dialoq Fondunun nümayəndəsi, Hindistan/Avstraliya;
24. Bencamin Bikford - ekspert, Avstraliya;
25. Priyanga Premaratne - Beynəlxalq Sunşayn Koas İnkişaf Universitetinin tədqiqatçısı, Avstraliya;
26. Uzma Nahid - "Solution for You" təşkilatının təsisçisi, Pakistan;
27. Anumnu İkenna Maykl - Səhiyyə və Ətraf Mühitin Mühafizəsi üzrə "GoodWash" Fondunun nümayəndəsi, Nigeriya;
28. Alfons Rac - Kəndlərin Rekonstruksiyası və İnkişaf Layihəsinin nümayəndəsi, Hindistan;
29. Vera Daniel - Şəffaflıq Uğrunda Afrika Gənclərinin nümayəndəsi, Nigeriya;
30. Elong Emilienne-Alice, "GDF" Müxtəliflikdə Birlik Təşkilatının nümayəndəsi, Kamerun".

# Bakı Enerji Həftəsinin başlanmasına 4 gün qalır

## Regionun bu mühüm enerji tədbiri əməkdaşlıq və tərəfdaşlıq üçün yeni yollar açacaq




**Regionun enerji sahəsində ən mühüm hadisəsi - Bakı Enerji Həftəsinin açılışına 4 gün qalır. İyunun 4-də başlanıb 6-da yekunlaşacaq Bakı Enerji Həftəsi özündə üç mötəbər tədbiri birləşdirəcək. Bunlar 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil&Gas", 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 29-cu Bakı Enerji Forumudur.**

"Caspian Oil&Gas" və "Caspian Power" sərgiləri Bakı Ekspo Mərkəzində, forum isə ekoloji konseptdə inşa edilmiş Bakı Konqres Mərkəzində təşkil ediləcək.

Keçirilməsi ənənə halını almış Bakı Enerji Həftəsi dünyanın enerji sənayesi sahəsinin liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycanın üzərinə cəmləşdirir. Prezident İlham Əliyevin indiyədək ölkəmizdə keçirilən həmin enerji həftələrinin hər birinin açılış mərasimində iştirak etməsi bu tədbirin yüksək statusunu təsdiqləyir.

Budəfəki Bakı Enerji Həftəsi bir neçə əhəmiyyətli hadisəyə təsadüf edir. Belə ki, bu il ölkəmizin neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanmasının 30 ili tamam olacaq. "Əsrin müqaviləsi" xalqımızın Ümummilli Lideri Heydər Əliyevin banisi olduğu Azərbaycanın yeni energetika strategiyasının əsası hesab edilir. Elə Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin təşkilatçısı da Ulu Öndər olub. Sərginin təsis edilməsindən artıq 30 il ötür. (Lakin əvvəlki illərdə araya koronavirus pandemiyası düşdüyündən növbəti sərgi sayca 29-cudur və yubileyini gələn il qeyd edəcək). Daha bir önəmli fakt odur ki, budəfəki sərgilər və forum Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nin yaşandığı dövrdə keçirilir. Nəhayət, bu il ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək. Təbii ki, bu əlamətdar hadisələrin hər biri Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapacaq.

Bakı Enerji Həftəsi ərəfəsində keçirilən mətbuat konfransında səslənən məlumata görə, tədbirdə 37 ölkədən 300-dək şirkət öz iştirakını təsdiq edib. Burada Azərbaycanla yanaşı, ABŞ, Almaniya, Avstraliya, Avstriya, Belarus, Belçika, Bəhreyn, BƏƏ, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, Əlcəzair, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İraq, İsrail, İsveç, İtaliya, Latviya, Qazaxıstan, Qətər, Macarıstan, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Sloveniya, Türkiyə, Ukrayna və Yaponiya iştirakçı olacaq . Bunların arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər tədbirə ilk dəfə qatılacaqlar. Daha bir neçə maraqlı fakt ondan ibarətdir ki, builki sərginin iştirakçılarının ümumi sayının 15 faizini yeni şirkətlər təşkil edəcək. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən xarici iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, sərgilərin daimi iştirakçılarına məxsus olacaq.

Xatırladaq ki, hər il sərgi və forum iştirakçılarına bir sıra dövlətlərin başçılarından təbrik məktubları göndərilir. Tədbirlərə əlaqədar dövlət strukturlarının, enerji sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbərləri, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçıları qatılır. Bu il də Bakı Enerji Həftəsində yüksəkrütbəli qonaqların iştirakı gözlənilir.

Bir sözlə, Bakı Enerji Həftəsi enerji sektorunun aktual məsələlərinin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi bir platformadır. Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqli və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək göstərir.

Builki "Caspian Oil&Gas" sərgisində də Xəzər regionunun əsas neft-qaz layihələri və regionun enerji təhlükəsizliyi məsələləri müzakirə olunacaq. Sərginin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə süni intellekt, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim ediləcək.

"Caspian Power" sərgisində isə beynəlxalq və yerli şirkətlərin energetika və "yaşıl enerji" mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yenilikləri və bununla bağlı təkliflər gündəmdə olacaq.

Bakı Enerji Həftəsinin ayrılmaz bir hissəsi də Bakı Enerji Forumudur. Forumda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri müzakirə ediləcək. Ənənəvi olaraq foruma 600-dən çox nümayəndənin qatılacağı gözlənilir.

Həftə çərçivəsində ənənəvi olaraq baş tutacaq tədbirlər zamanı ikitərəfli işgüzar görüşlər keçiriləcək. Burada yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz oturaraq əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə edə biləcəklər.

Bakı Enerji Həftəsinin tədbirlərinə Azərbaycan Respublikası Energetika Nazirliyi dəstək göstərir, baş tərəfdaş qismində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) çıxış edir. Təşkilatçılar isə "Iteca Caspian", "Caspian Event Organisers" və onların beynəlxalq tərəfdaşları olan "ICA Events" və "Caspian Event Management FZ-LLC" şirkətləridir. Tədbir çoxlu sayda sponsorlar cəlb edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Kapital daha çox bərpa-quruculuq işlərinə yönəldilir

*Əvvəli 1-ci səh.*

Hesabat dövründə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 6,2, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 15,2 faiz artmışdır. Ümumi sərmayənin 2 milyard 828,9 milyon manatı məhsul istehsalı sahələrinin, 1 milyard 979,3 milyon manatı xidmət sahələrinin, 422,2 milyon manatı yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Cari ilin 4 ayında kapital qoyuluşunda dövlətin vəsaiti daha çox olmuşdur - 56,1 faiz. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri isə ümumi sərmayənin 80,5 faizini təşkil etmişdir. Bu dövr ərzində yatırılan sərmayənin 70,5 faizindən tikinti-quraşdırma işlərində istifadə olunmuşdur ki, bu da əsasən işğaldan azad edilən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan bərpa-quruculuq işlərinin həcmi ilə bağlıdır.

Qlobal səviyyədə baş verən məlum səbəblər üzündən dünyada investisiya qoyuluşu azalıb. Çünki investorlar risk etmək istəmirlər, gərginliyin bitməsini gözləyirlər. Bu səbəbdən ölkəmizə də xarici sərmayə qoyuluşu azalıb. Buna baxmayaraq, ölkəmizdə olan münbit investisiya mühiti və iqtisadi göstəricilərinin yüksək olması xarici sərmayə qoyuluşunu dayandırmayıb. Hesabat dövründə xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan iqtisadiyyatına 970,3 milyon manat investisiya qoyulması da bunu təsdiqləyir. Həmin investisiyanın 95,1 faizi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, Türkiyə, İsveçrə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan və Fransa sərmayədarları tərəfindən yatırılmışdır.

Məlumdur ki, hazırda Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsinə dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi müzakirə olunur. Vurğulayaq ki, 2024-cü ilin dövlət büdcəsində işğaldan azad edilən ərazilərin bərpa edilməsi üçün 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdu. Dövlət büdcəsində edilən dəyişikliklər isə bu sahəyə əlavə 1 milyard 160 milyon manat vəsaitin ayrılmasına imkan yaradacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bütün proseslər mərhələli şəkildə davam edir

## Dörd kəndin qaytarılması delimitasiya istiqamətində ən mühüm addımdır



**"Qazaxın dörd kəndinin geri qaytarılması, sərhəd dirəklərinin basdırılması delimitasiya və demarkasiya istiqamətində atılan ən ciddi addımlardan biridir. Bu proseslərdən sonra Azərbaycanın sərhəd qoşunları öz mövqelərini həmin ərazilərdə möhkəmləndiriblər".**

"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, sərhəd qoşunlarının öz mövqelərinə çıxması və orada dislokasiyası suverenliyin bərpası istiqamətində atılan uğurlu addımlardandır. Onun sözlərinə görə, artıq Azərbaycan sərhədlərini Dövlət Sərhəd Xidməti qoruyur və burada söhbət müharibə ərəfəsində olan qoşunlardan deyil, sərhədin qorunmasından gedir.

Deputat qeyd edib ki, Ermənistan daxilindəki revanşist qüvvələr bunun əleyhinə olsa da, məqsəd başqadır. "Revanşist qüvvələrin arxasında duran istər keçmiş hərbi xunta, istərsə də bir sıra havadar dövlətlər başa düşürlər ki, onlar nə vaxtsa törətdikləri cinayətlərə görə cavab verəcəklər. Növbəti mərhələ Zəngəzur dəhlizi və digər istiqamətlərdə müvafiq sənədlərə uyğun olaraq sərhədlərin bərpa edilməsi, kommunikasiyaların açılmasıdır. Bu istiqamətdə Azərbaycan dövlətinin apardığı daxili və xarici siyasət müstəqildir. Heç kim buna qarışa bilməz. Düzdür, bununla bağlı ciddi cəhdlər var, lakin Azərbaycan mərhələli şəkildə qarşıya qoyulan bütün məqsədlərinə çatır", - deyə o əlavə edib.

A.Nağıyev xatırladıb ki, Prezident İlham Əliyevin Xocalıda sakinlərlə görüş vaxtı verdiyi mesaj bir daha göstərdi ki, Azərbaycanın baş qaldıracaq istənilən təxribata cavab verməyə haqqı, hüququ və hər cür imkanı, gücü var. Buna görə də Ermənistan başa düşməlidir ki, sülhün bərqərar olması, regionda sabitliyin yaranması dünyada olan müharibə ocaqlarından birinin sönməsinə xidmət edəcək. Yəni bu, çox ciddi məsələdir.

Deputat vurğulayıb ki, kommunikasiyaların açılması da mütləq şəkildə həllini tapmalıdır: "Bu gün hərbi birləşmələrimiz də, sərhəd qoşunlarımız da, xüsusi xidmət orqanlarımız da birmənalı şəkildə dövlət və dövlətçiliyin qorunması istiqamətində çox mühüm addımlar atırlar. Digər məsələ beynəlxalq səviyyədə görüşlərin keçirilməsidir və Ermənistanın baş nazirinin də bildirdiyi kimi, COP29-a qədər və yaxud o ərəfədə sülh müqaviləsinin imzalanması mümkündür. Sadəcə olaraq, onlar öz konstitusiyalarına dəyişiklik edib Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, istər kilsə, istərsə də separatçıların Ermənistanda nümayəndəliyinin ləğvi istiqamətində addımlar atmalıdırlar".

A.Nağıyev yekunda bir daha bildirib ki, əsas məsələ sərhədlərimizin tam şəkildə bərpası və ərazilərimizin nəzarətə götürülməsidir ki, bunu da dövlətimiz bacarır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dayanıqlı sülh üçün unikal şans yaranıb



**"Qazaxın Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin sərhədçilərimiz tərəfindən nəzarətə götürülməsi və bu ərazidə delimitasiya prosesində Azərbaycanın bir qarış torpağının da Ermənistana verilməməsi Prezident İlham Əliyevin prinsipial mövqeyi və qələbəsidir. Dövlət başçısı hələ bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bəyan etmişdi ki, "O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır". Yəni siyasi iradə artıq aydın idi ki, Azərbaycan beynəlxalq hüquqa əsasən özünə məxsus olan bir qarış da olsun torpağı güzəştə getməyəcək".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Vətən müharibəsindəki şanlı zəfərdən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə başlamış sülh prosesi qarşısında əsas əngəllərin tamamilə aradan qalxdığı bir dövrdə İrəvan məqsədli olaraq texniki detallara fokuslanır, eyni zamanda delimitasiya və demarkasiya prosesinin sülhlə yanaşı, müzakirəsində və şərtləndirilməsində israr edir, xəritələrlə bağlı aydın və sağlam olmayan metodologiyasız populist gedişlərə üstünlük verirdi: "Lakin dövlətimizin başçısı bu proseslərin hər birinə dair aydın və qəti mövqeyini diktə etməklə Ermənistana reallıqları bir daha başa saldı. Paşinyan iqtidarı tədricən anlamağa başladı ki, regionda mövcud olan unikal sülh imkanı tarixi şansdır və bu fürsətin əldən çıxması Ermənistana yaxşı heç nə vəd etmir. Bu mənada, İrəvanın son zamanlar nümayiş etdirdiyi nisbi praqmatik davranışlar məhz Azərbaycanın yaratdığı reallıqların diktəsidir".

Deputatın sözlərinə görə, Azərbaycan Prezidentinin ardıcıl hərbi-siyasi qələbələri fonunda Ermənistan və havadarları da yaxşı başa düşürdülər ki, kəndlərimizin geri qaytarılmaması kimi bir məsələ Bakı üçün müzakirə mövzusu belə ola bilməz. Bu mənada, Azərbaycanın yaratdığı hərbi-siyasi reallıqların nəticəsi olan 19 aprel tarixli razılığa müvafiq olaraq hər hansı hərbi məcburetmə tədbirlərinə ehtiyac duyulmadan 6,5 kvadratkilometr ərazinin azad edilməsi Müzəffər Ali Baş Komandanın 2020-ci il 10 noyabr kapitulyasiya aktına müvafiq olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana təhvil verilməsində ehtiva olunan tarixi uğurunun heç də daha asan olmayan bir situasiyada təkrar olunması demək idi.

Bəhruz Məhərrəmov onu da bildirib ki, delimitasiya və demarkasiya uzun sürən çox mürəkkəb bir prosesdir: "Azərbaycanla uzun illər münaqişədə olmuş, 30 il ərazilərimizi işğalda saxlamış Ermənistanla delimitasiya və demarkasiya prosesinin daha çətin keçəcəyi sirr deyil. Bununla bağlı hər iki ölkənin müvafiq qurumlarının iclaslarında məhz Prezident İlham Əliyevin direktivlərinə uyğun müvafiq razılığa gəlinməsi, cəmi bir ay sonra Azərbaycan və Ermənistan arasında delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilməsi həm də göstərir ki, bu bölgədə lider iradə həm də beynəlxalq hüququn aliliyini təmin edə bilib", - deyə müsahibimiz əlavə edib.

Deputat qeyd edib ki, Prezident 10 may müsahibəsində həm də ifadə etmişdi ki, delimitasiya və demarkasiya prosesi Tovuz-Qazax bölgəsi istiqamətindən - hələ də işğalda qalan kəndlərimizdən başlanmalıdır: "Bu gün reallaşan prosesin digər konseptual önəmi ondan ibarətdir ki, Azərbaycan və Ermənistanın arasında delimitasiyanın və hətta demarkasiyanın məhz ilk olaraq bu istiqamətdə faktiki olaraq yekunlaşması göstərir ki, artıq Ermənistan hakimiyyəti Bakının beynəlxalq hüquqa əsaslanan bu mövqeyinin real mahiyyətini başa düşür və nəhayət, üç il yarım sonra Bakının mövqeyinin hüquqi cəhətdən qanuni və ədalətli, praktiki cəhətdən isə səmərəli olmasını, situasiyanın Ermənistan üçün hər hansı formada təhdid yaratmadığını dərk edir. Ümumiyyətlə, reallıqda da kəndlərimizin geri qaytarılması barədə ilkin razılıq elə bir situasiyadır ki, sağlam təfəkkürə malik heç bir subyekt bu prosesdə məğlub görünmür. Daha doğrusu, əgər Ermənistanda hansısa dairələr həmin kəndləri hələ də özününkü hesab edirsə, bu həmin qüvvələrin ciddi məğlubiyyətidir. Əksinə, beynəlxalq hüquqa hörmətlə yanaşanlar isə özünün olmayan ərazilərə iddialardan könüllü surətdə əl çəkərək sağlam iradə nümayiş etdirməklə bu uğurdan pay götürə bilirlər".

Bəhruz Məhərrəmov sonda vurğulayıb ki, Azərbaycan hər hansı formada yeni hərbi gərginlik arzulamır: "Prezidentin siyasi iradəsi ilə beynəlxalq hüququn aliliyi şəraitində Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası üzrə aprelin 19-u və mayın 15-də müvafiq komissiyaların səkkiz və doqquzuncu görüşündə əldə olunan nəticə də məhz dayanıqlı sülh və gələcək əməkdaşlıq üçün tarixin heç bir dövründə olmadığı qədər unikal perspektiv yaradıb".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 13 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 5 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 10 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 20 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 7 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 21 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 11 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 12 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 24 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 27 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 10 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 6 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 14 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 7 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 6 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 4 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 14 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 28 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 27 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 25 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 24 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 11 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Bu gün regionda şərtləri qalib Azərbaycan diktə edir

**İkinci Qarabağ müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, yüzlərlə yüksək strateji yüksəkliklər erməni işğalçılarından azad olundu. Uğurla başa çatan hərbi əməliyyatlar nəticəsində düşmənin zirehli texnikaları, avtomobilləri sıradan çıxarıldı, xeyli sayda canlı qüvvəsi məhv edildi. Bütövlükdə Ermənistan ordusuna sarsıdıcı zərbələr vuruldu. Bu zərbələr nəticəsində Ermənistan silahlı qüvvələrinin hərbi hissə və birləşmələri darmadağın edildi.**







2020-ci il sentyabrın 27-dən erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsi noyabrın 10-da Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Döyüş meydanlarında qazanılan bu qələbə regionda yeni reallıqlar yaratdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu döyüşlər apararaq Ermənistan ordusunun guya məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılmış mifi ayaqlar altına atdı. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Ölkəmiz öz gücü və qüdrəti ilə beynəlxalq təşkilatların 30 ilə bacarmadıqları problemi 44 gün ərzində həll etdi.

Qələbədən sonra Azərbaycan Ermənistana sülh gündəliyini təqdim etdi, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı təkliflər irəli sürdü. Azərbaycan bəyan etdi ki, havadarlarına arxalanan ermənilər çirkin əməllərindən əl çəkməli, təxribatlarına son qoymalıdırlar. Anlamalıdırlar ki, sülh müqaviləsinin imzalanmamasında itirən, 30 ildə olduğu kimi, bundan sonra da beynəlxalq əhəmiyyətli, irimiqyaslı layihələrin reallaşmasında iştirakdan təcrid olunan məhz Ermənistan olacaq. Azərbaycan bölgədə yeni geosiyasi reallıqlar yaradıb və ölkəmizin BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yaratdığı reallıqlar BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir. Ölkəmizin haqq səsi artıq dünyanın hər yerində eşidilir.

Əvvəllər delimitasiya və demarkasiya məsələsindən yayınan Ermənistan əlləri havadarlarının ətəyindən üzüləndən sonra axır ki, Azərbaycanla bir masa arxasında oturmağa məcbur oldu. Özü də bu danışıqlar heç bir beynəlxalq vasitəçinin iştirakı olmadan aparıldı. Bundan sonra rəsmi Bakı və İrəvan arasındakı münasibətlərdə irəliləyiş müşahidə olunmağa başladı. 19 aprel 2024-cü il Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın səkkizinci görüşünün yekunları üzrə əldə edilən razılaşmalara müvafiq olaraq, 2024-cü il aprelin 23-də ölkələrin ekspert qrupları Azərbaycan ilə Ermənistan arasındakı sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesinə başladı.

Mayın 15-də Azərbaycan və Ermənistan arasında gözlənilən protokolun imzalanması ilə Qazax rayonu istiqamətində delimitasiya prosesi yekunlaşdı. Qazaxın dörd kəndinin - Aşağı Əskipara, Bağanis Ayrım, Qızılhacılı və Xeyrimli kəndlərinin Azərbaycana qaytarılması ölkəmizdə sevinclə qarşılansa da, Ermənistanda tamamilə bunun əksi baş verdi. Ermənilər İrəvan-Tbilisi magistral yolunun bir hissəsinin Ermənistanın nəzarətindən çıxmasına və kəndlərin qaytarılmasına etiraz etdilər. Bu ərəfədə parlamentdə çıxış edən Nikol Paşinyan isə onu günahlandıranlara sərt cavab verərək dedi: "Onlar istəyirlər ki, İrəvanın mərkəzindəki kafedə oturan insanlar Qars haqqında xülyalara dalsınlar və bununla da İrəvanın özünü itirsinlər. Real və tarixi Ermənistan arasındakı fərq budur".

Nəhayət, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın 2024-cü il 19 apreldə əldə olunmuş razılaşma əsasında həyata keçirilmiş delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilib və Qazax rayonunun 4 kəndinin - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edildi. Mayın 24-də həmin kəndlərin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü. Bu barədə Müzəffər Ali Baş Komandana məruzə olundu, təntənəli surətdə Azərbaycan bayrağı qaldırıldı.

Sevincini yaşadığımız bu hadisənin xalqımız və dövlətimiz üçün çox böyük tarixi əhəmiyyəti var. Sovet İttifaqının 1991-ci ildə dağılmasından sonra ilk dəfə Azərbaycan və Ermənistan dövlət sərhədinin delimitasiyası üzrə razılığa gəlib. Artıq sərhədin 12,7 km uzunluğunda olan hissəsi şərti deyil, real sərhəd xəttidir və qarşılıqlı şəkildə tanınır. Qazaxın 4 kəndinin 1 güllə atılmadan, qan tökülmədən qaytarılması Azərbaycanın suverenliyinin təmin olunmasında daha bir önəmli addımdır. Qarabağ iqtisadi rayonu kimi bu kəndlər də yaxın zamanlarda sürətlə abadlaşacaq və 33 il əvvəlki həyat bərpa olunacaq.

Delimitasiya üzrə komissiyaların əldə etdiyi razılaşmanın icrası iki ölkə arasında yeni etimad mühiti yaratdı. Eyni zamanda bu, rəsmi Bakının sülh danışıqlarını və delimitasiya ilə bağlı prosesi vasitəçilərsiz, üçüncü tərəf olmadan aparılması təklifinin səmərəliliyini açıq şəkildə göstərdi. Bu tarixi hadisə Azərbaycan Prezidenti İlham Əliyevin növbəti diplomatik uğurudur. Məhz Azərbaycan Prezidentinin həm hərbi, həm də diplomatik sahədə müəyyən etdiyi xətlər üzrə uğurla inkişaf edən Azərbaycan dövləti, Azərbaycan Ordusu xalqımızın dəstəyi ilə, Ali Baş Komandanın rəhbərliyi altında Ermənistanı beynəlxalq hüquqa hörmətlə yanaşmağa məcbur etdi. Zaman göstərdi ki, bu gün delimitasiya və demarkasiya prosesində şərtləri müharibədən qalib çıxmış Azərbaycan dövləti diktə edir. Bu tarixi şəraiti və reallığı Azərbaycan daim artan gücü və qüdrəti ilə özü yaradıb.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Paris Yeni Kaledoniyanın təbii sərvətlərini istismar edir

**Fransanın müstəmləkəçilik siyasəti nəticəsində öz ölkələrində, əzəli torpaqlarında azadlıqlarını itirmiş, əsir vəziyyətinə düşmüş yerli xalqlar artıq müstəqil olmaq üçün mübarizəyə qalxmışdılar. Onlar həmçinin uzun illərdir ki, fransızlar tərəfindən talanan, daşınıb aparılan təbii sərvətlərinə indi özləri sahiblənməkdə qərarlıdırlar. Sakit okeanda yerləşən və Fransanın nəzarəti altında olan Yeni Kaledoniyada da yerli xalq cana doyduğu rəsmi Parisin müstəmləkəçilik siyasətindən sadəcə fəryad etmir. Kanak xalqı ayağa qalxaraq öz etiraz səsini keçirdiyi aksiyalarla dünyaya çatdırmağa çalışır.**



Kanaklar etiraz aksiyalarında yalnız Fransanın müstəmləkəçilik siyasətindən narazılıqlarını ifadə etmirlər. Eyni zamanda öz hüquqlarının müdafiəsi, özünüidarəetmə və təbii sərvətlərin fransız şirkətləri ilə birlikdə beynəlxalq korporasiyalar tərəfindən istismarına son qoyulması tələblərini qəti şəkildə irəli sürüblər. Təəssüf ki, onların haqlı tələbləri Fransanın əsrlərdir ki, davam edən müstəmləkəçilik siyasətini sürdürməkdə israrlı olan Emmanuel Makron hakimiyyəti tərəfindən kəskin tədbirlərlə qarşılanıb. Bununla da dünyaya özünü demokratik dövlət kimi tanıtmağa səy göstərən, ədalətdən, haqdan dəm vuran Fransa sözləri ilə əməllərinin nə qədər fərqli, ziddiyyətli olduğunu bir daha təsdiqləyib. Belə ki, rəsmi Parisin kanakların etirazlarına cavab olaraq Yeni Kaledoniyaya qoşun göndərməsi vəziyyətin daha da kəskinləşməsinə səbəb olub. Yüzlərlə etirazçı həbsə atılıb, toqquşmalarda ölənlər və xəsarət alanlar olub. Bütün nümayiş və aksiyalar, həmçinin sosial şəbəkələr qadağan olunaraq bağlanılıb. Adaya jurnalistlərin girişi məhdudlaşdırılıb.

Müstəmləkə caynağını 16 min kilometr aralıda, Sakit okeanda yerləşən Yeni Kaledoniyaya da uzatmış və çəkmək niyyətində olmadığını göstərən Fransanın bu cür özbaşınalıqları, insani dəyərləri və beynəlxalq hüququ heçə sayması dünyanın əksər ölkələri tərəfindən pislənilir. Beynəlxalq ictimaiyyət, bir sıra insan hüquqları təşkilatları və dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələri tərəfindən Fransanın müstəmləkəçilik siyasəti tənqid edilir. Onlar rəsmi Parisi mənfur siyasətinə son qoymamaqda, müstəmləkə asılılığından xilas olmaq istəyən yerli xalqların haqlı tələblərini yerinə yetirmək əvəzinə, onları öz doğma ölkələrinin vətəndaşı olmaq hüquqlarından məhrum etməkdə, əzab-əziyyət içərisində yaşamağa məhkum etməkdə günahlandırırlar.

Ucaltdıqları etiraz səslərini bütün dünyanın eşitməsini arzulayan kanakların Fransa hökumətinin zülmlərinə məruz qalmalarının əsas səbəbi onların vəteninin - Yeni Kaledoniyanın təbii sərvətlərlə zəngin olmasıdır. Özünəməxsus mədəniyyəti, adət-ənənələri olan bu xalq uzun illərdir ki, Fransanın müstəmləkə hakimiyyətinin əsarətində qalıblar. 1980-ci illərdən başlayaraq rəsmi Paris böyük imkanlar yaradıb ki, fransızlar adaya köçüb, orada yaşasınlar. Bu məqsədlə Fransa hökuməti tərəfindən Yeni Kaledoniyada fransızlar vergilərdən azad olunub. Onlara biznes fəaliyyəti göstərmələri üçün hər cür şərait yaradılıb. Rəsmi Parisin bu addımları 2023-cü ildə fransızların sayının yerli əhaliyə nisbətdə 60 faiz təşkil etməsi ilə nəticələnib. Qalan 40 faiz yerli xalqdan ibarətdir. Ancaq onların doğma vətənlərində sayca bu qədər azaldılması ilə də rəsmi Paris kifayətlənməyib. Yeni Kaledoniyada yerli xalq işsizlik probleminin məngənəsinə salınıb, ağır sosial vəziyyətdə yaşamaq məcburiyyətində qalıb. Çünki Yeni Kaledoniyada münbit torpaqlar, şirkətlər, faydalı qazıntılar, daşınmaz əmlak, bir sözlə, milli sərvətlərin 80 faizi fransızlara məxsusdur.

Yeni Kaledoniya Fransanın müstəmləkəçilik siyasəti nəticəsində iğtişaşlar məkanına çevrilib. Bu səbəbdən Cənubi Koreya vətəndaşlarını oradan təxliyə etməyə başladı. Cənubi Koreyanın Xarici İşlər Nazirliyi açıqladı ki, yaranmış gərgin vəziyyət fonunda təhlükəsizlik məsələləri səbəbindən 6 koreyalı təxliyə edilib. Onlar hava nəqliyyatı ilə Yeni Kaledoniyadan çıxarılıb. Nazirlik Yeni Kaledoniyadakı digər koreyalıların təhlükəsizliyi üçün lazımi addımlar atılacağını bildirib.

İğtişaşların hökm sürdüyü Yeni Kaledoniyadan Çin də 18 vətəndaşını təxliyə edib. Bu barədə Çinin Xarici İşlər Nazirliyi açıqlama yayıb. Nazirlik iğtişaşlar başlayandan Fransadakı Çin səfirliyi tərəfindən vətəndaşlarının təhlükəsizliyini diqqətdə saxlayıb. Bundan başqa, ölkənin Avstraliya, Yeni Zelandiya və Sinqapurdakı səfirliklərinə Çin vətəndaşlarının təxliyəsini təşkil etmək barədə təlimat verilib. Nəticədə, çarter uçuşla 18 Çin vətəndaşı Yeni Kaledoniyadan təxliyə olunub.

Həmçinin Yeni Zelandiya Hərbi Hava Qüvvələrinə məxsus təyyarələr 300-dən çox insanı Yeni Kaledoniyadan təxliyə edib. Yeni Zelandiyanın xarici işlər naziri Uinston Piters repatriasiya reyslərindəki sərnişinlər arasında əcnəbilərin də olduğunu açıqlayıb. O, Yeni Zelandiya Hərbi Hava Qüvvələrinin yeddi reysinin Numea şəhərindən Oklendə 225 Yeni Zelandiya vətəndaşını və 145 əcnəbini daşıdığını bildirib: "Fransa və Yeni Kaledoniya hakimiyyət orqanları icazə verən kimi biz vətəndaşlarımız və kömək istəyən xarici vətəndaşlar üçün (evakuasiya) uçuşlar təşkil etdik". Yeni Zelandiyanın xarici işlər naziri, həmçinin evinə qayıtmaq istəyən Yeni Kaledoniya sakinlərinin eyni reyslərlə Numeaya göndərildiyini də qeyd edib.

Məlum olduğu kimi, Fransa hakimiyyəti Yeni Kaledoniyada iğtişaşlar səbəbindən mayın 15-də tətbiq olunan fövqəladə vəziyyəti ləğv etməyə qərar verdi. Bu barədə Fransanın Sakit okeandakı dənizaşırı ərazisinin ali komissarlığının ofisi tərəfindən dərc olunmuş bəyanatda bildirildi. Bununla belə, hüquq-mühafizə orqanları yüksək hazırlıq vəziyyətində qalmağa davam edəcək. Hakimiyyət axşam və gecə saatlarında qüvvədə olan komendant saatını hələlik ləğv etmək niyyətində deyil. Ali komissarlığın məlumatında nəzərə çatdırıldı ki, iğtişaşların yatırılması zamanı 460-dan çox insan saxlanılıb: "Yeddi nəfər, o cümlədən iki jandarm həlak olub, hüquq-mühafizə orqanlarının 122 əməkdaşı yaralanıb".

Məlumdur ki, Fransanın müstəmləkə siyasətinə etiraz edərək öz hüquqları uğrunda mübarizəyə qalxan yalnız kanaklar deyil. Son illər Fransanın dənizaşırı əraziləri hesab edilən ölkələrdə rəsmi Parisə qarşı etiraz dalğaları yüksəlməkdədir. Həmin ölkələrin yerli xalqları artıq Fransanın müstəmləkə zəncirlərini qıraraq əzab-əziyyətlərdən, məhrumiyyətlərdən qurtulmaq, dövlət müstəqilliklərinə nail olmaq, öz müqəddəratlarını özləri müəyyənləşdirmək istəyirlər. Bu məqsədlə başladıqları mübarizəni qətiyyətlə davam etdirirlər.

Fransadan təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasında da yerli xalq məruz qaldığı Fransanın müstəmləkəçiliyindən xilas olmaq, müstəqillik qazanmaq arzusundadır.

Müstəmləkə quruluşu burada Fransa-Taiti müharibəsindən (1844-1847) sonra tətbiq olunmağa başlayıb. 1843-cü ildə qurulmuş Fransız protektoratını Taiti kraliçası IV Pomare qəbul etməyə məcbur olub. Taiti Krallığı 1880-ci ildə kral V Pomare ilə razılaşmaya əsasən Fransaya verilib. İmzalanan qanuna görə, krallığın bütün subyektlərinə Fransa vətəndaşlığı verilirdi. Fransanın işğalına məruz qalan Taiti Krallığı 1881-ci ildən Okeaniyanın fransız əraziləri (EFO), 1957-ci ildən isə Fransız Polineziyası adlandırılıb.

Yalnız 1946-cı ildə Polineziyanın yerli əhalisi səsvermə hüququnu əldə edib. 1957-ci ildə ilk yerli hökumətini qurub. Ancaq 1977-ci ilədək Polineziya məktəblərində yerli dillər tədris edilməyib. Bura bəzi epidemik xəstəliklərin yayıldığı ərazi kimi tanınır. Fransa burada 1966-1996-cı illərdə 200-ə yaxın nüvə sınağı aparıb. Təqribən 170 min nəfər nüvə sınaqlarının qurbanı olub. Fransa hökuməti yerli əhalinin hələ də şüalanmaya məruz qalan şəxslər üçün kompensasiya tələbinə əməl etməyib. Lakin Polineziya əhalisinin nüvə sınaqlarından əziyyət çəkdiyini 1998-ci ildə Fransanın Müdafiə Nazirliyi tərəfindən rəsmən etiraf olunub. Paris buna görə 2010-cu ildə təzminat ödəməyə başlayıb. Təəssüf ki, həmin təzminatdan yararlananların əksəriyyəti əsasən fransızlar olub.

Hələ 1946-cı ildə Polineziya BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınıb. Lakin Fransanın təzyiqi nəticəsində 1947-ci ildə siyahıdan çıxarılıb.

Bu gün rəsmi Parisi narahat edən məqamlardan biri də budur ki, müstəmləkəsi altındakı digər ərazilərdən fərqli olaraq Polineziyada yerli əhalinin assimilyasiyasına nail ola bilməyiblər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Demokratiyaya və azadlığa qarşı qlobal təhdid

### Dünyada ən çox soyqırımı və kolonializm siyasəti yürüdən ölkə məhz Fransadır

**Bir çox dövlətlərin ərazisini işğal, sərvətlərini isə talan etmiş, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq və müharibə cinayətləri beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Təkcə Afrika ərazilərinin 35 faizi 300 il ərzində tamamilə Fransanın müstəmləkəçiliyinin qurbanı olub. Təbii ki, zaman ötdükcə Fransa siyasətində müəyyən forma dəyişiklikləri etsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, mahiyyəti dəyişməyib.**

Fransanın müharibə cinayətlərinin tarixi daha qədim, coğrafiyası isə olduqca genişdir. XVI əsrdən müstəmləkəçilik siyasəti yürüdən Fransanın II Dünya müharibəsindən əvvəl işğal etdiyi torpaqlarda öz ərazisindən 20 dəfə böyük bir coğrafiyada etdiyi talançılıq və qətlləri unudulmayıb. Afrikanın 20-dən artıq ölkəsində öz hakimiyyətini quran fransızların müstəmləkə siyasəti II Dünya müharibəsindən sonra iflasa uğradı. Həmin dövlətlərə müstəqillik verməyə məcbur olan Fransa neokolonializm üsul-idarəsini seçdi. Afrika ölkələrini əlindən buraxmaq istəməyən fransızlar yeni metodlara əl atdılar. Həmin dövlətlərin ərazilərində münaqişələr yaratmaq məqsədilə öz qoşunlarını "sülhməramlı missiya" adı ilə yerləşdirdilər. Təsadüfi deyil ki, indiyədək qitə ölkələrində baş vermiş hərbi çevrilişlərin 70 faizi fransızların təsiri altında olan dövlətlərin payına düşür.

Fransa müstəmləkə ölkələrinin hamısına səfalət və faciə gətirdi. Afrika ölkələrində müstəqillik uğrunda gedən müharibələrdə 2 milyondan çox insan həlak olub. Təkcə Əlcəzairdə fransız ordusu 1,5 milyondan çox insanı qətlə yetirib. 1832-ci ildə Əlcəzairin El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilib. Qadınlar və uşaqlar da daxil olmaqla 12 min adam öldürülüb. Fransanın işğal etdiyi Mərakeşdə 1907-ci ilin avqustunda "Kasablanka döyüşü" kimi yaddaqalan hücumu nəticəsində 2 gün ərzində 3000-ə yaxın mərakeşli qətlə yetirilib. 1944-cü ilin noyabrında baş verən Seneqal hadisələrində Fransızlar tərəfindən yüzlərlə Seneqal əsgəri güllələnib. 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxıb. Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilib, mindən çox şəxs həbs olunub. Bu hadisə tarixə "Sena qətliamı" kimi daxil olub. 1994-cü ildə isə fransızlar Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat həyata keçiriblər. Nəticədə 800 mindən çox insan qətlə yetirilib. 2014-cü ildə Ruanda Prezidenti Pol Kaqamenin soyqırımı aktında Fransanın rolunu dəqiq müəyyən etdiyi barədə bəyanat da verib.

Əsrlərlə müstəmləkəçilik siyasəti yeridən, milyonlarla günahsız insanın ölümünə səbəb olan Fransa bu gün də öz çirkin əməllərindən əl çəkmir. Özünü insani dəyərlərə, xalqların müqəddəratlarına hörmətlə yanaşan ölkə kimi göstərən Fransa hazırda Yeni Kaledoniyada Kanak xalqına qarşı qanlı əməllər törədir. Fransa hökuməti uzun illərdir ki, Yeni Kaledoniyanı müstəmləkəsi kimi əsarətində saxlamaq, habelə adanın yerli sakinləri olan kanakları assimilyasiya etmək üçün kənardan minlərlə miqrantı qanunsuz yolla adaya yerləşdirir. Məqsəd isə öz müstəqilliyini tələb edən kanakları azlığa çevirmək və miqrantların hesabına Fransa işğalını davam etdirməkdir. Makron hökuməti öz çirkin hədəflərinə çatmaq üçün Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişmək üçün müxtəlif təxribatlara əl atmaqdadır. XXI əsrdə neokolonializm siyasəti yürütmək və azad yaşamaq istəyən xalqların hüquqlarını silah gücü ilə boğmağın cinayət olduğunu Makron yaxşı bilir, amma öz tarixi ənənələrindən əl çəkə bilmir. Bu gün kanakları güllləbaran etmək, qanunsuz həbslər həyata keçirmək və insanları qorxu altında saxlamaq Fransanın əsl simasını bir daha sərgiləyir.

Fransa özünü demokratiyanın carçısı kimi aparıb şou göstərməkdənsə, beynəlxalq hüquq və ədaləti təmin etməlidir. Bunu isə ilk növbədə kolonializm siyasəti ilə istismar etdikləri xalqlara azadlıqlar verməklə nümayiş etdirməlidir. Təəssüflər olsun ki, bunun əksini görürük, Fransa törətdiyi cinayətləri gizlətmək üçün başqa dövlətlərə böhtan atmaq və günahlandırmaqla özünə haqq qazandırmağa çalışır. Amma yaxşı olardı ki, rəsmi Paris müstəqil ölkələrin daxili işlərinə qarışmaq əvəzinə, neokolonilizm siyasətini dayandırsın və köləlikdə saxladığı xalqların hüquqlarını tanısın, kanakları hərbi güclə əsarətdə saxlamaq və assimilyasiya etmək siyasətindən əl çəksin.

Fransa Yeni Kaledoniya xalqının haqlı tələbini yerinə yetirmək, onun müstəqillik arzusuna ehtiramla yanaşmaq əvəzinə bu ölkəyə əlavə hərbi birləşmələri cəlb etməklə Parisin antiinsani və antihüquqi siyasətini dünyaya bir daha açıq bəyan edir. Baş verənlər onu deməyə əsas verir ki, Fransa XXI əsrdə də XIX əsrdə Əlcəzair xalqına etdiklərini təkrarlamaqdadır.

Bu da onu göstərir ki, Fransa faşist, terror və kolonializm siyasəti yeridən dövlətdir. Törədilmiş soyqırımı cinayətləri, əsrlərdi davam edən məkrli siyasət Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir.

*Arzu ABDULLAYEV,*
*Naxçıvan Dövlət Universitetinin prorektoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

## Fransa müstəmləkəçilik siyasətini davam etdirməkdə israrlıdır

**Özünü dünyada insan haqlarının "qoruyucu mələyi" kimi göstərib bu üsulla digər ölkələrin daxili işlərinə müdaxilə etməkdən çəkinməyən Fransa insanlığa qarşı yaramaz əməllərindən əl çəkmək istəmir. Paris milyonlarla insanın yaşadığı ölkələrdə öz kolonializmini davam etdirməkdə nə qədər israrlı görünsə də, əsarətində saxladığı, təbii sərvətini talayıb sosial-mədəni, dini dəyərlərini tamamilə məhv etməyə çalışdığı xalqlar azadlıqları uğrunda mübarizəyə qalxaraq zülümdən xilas olmaq və müstəqil dövlətə çevrilmək üçün qəti mübarizəyə başlayıblar.**

Fransa sərhədlərindən 20 min kilometr uzaqda Sakit okeanda yerləşən Yeni Kaledoniya arxipelaqında XXI əsrin 24-cü ilində neokolonial siyasətin ən amansız üsullarından istifadə etməklə ağalığını qoruyub saxlamağa çalışır. Parisin Yeni Kaledoniyanın aborigen sakinləri olan kanakların sayını nəzarətdə saxlamaq və onların ada dövlətində mütləq çoxluq olmasını önləmək üçün konstitusiyaya dəyişiklik etməsi paytaxt Numeada müstəqillik tərəfdarlarının ciddi etirazına səbəb olub.

Azadlıqları uğrunda mübarizəyə qalxan kanak xalqının haqlı tələbinin qarşısını almaq, etirazları yatırmaq məqsədilə Fransa hökuməti adaya qoşun yeridib əhaliyə divan tutdu. Bununla da kifayətlənməyən işğalçı dövlət Yeni Kaledoniyada giriş-çıxışın qarşısını almaq məqsədilə hava limanını da bağladı. İnsan hüququndan, demokratiyadan dəm vuran Fransanın güc strukturları hüquqları uğrunda mübarizəyə qalxan etirazçılara qarşı ən qəddar üsullardan istifadə etdi.

Etirazların yatırılması missiyası isə Fransanın bölgədə canişini rolunu icra edən, kanaklara xüsusi nifrəti ilə seçilən ali komissar Lui Le Franka tapşırılıb.

İxtişaşlar zamanı ən azı 7 nəfər həlak olub, yüzlərlə insan yaralanıb. Paytaxt Numeada çox sayda evlər və müəssisələr qarət edilib və yandırılıb. Nəticədə yerli rəsmilər səhərdən axşama qədər insanların küçəyə çıxmasına və toplaşmasına qadağa qoyub. Zorakılıq həmçinin məktəblərin və müəssisələrin qapadılmasına, hava limanının fəaliyyətinin dayandırılmasına səbəb olub, minlərlə turist ərazini tərk edə bilməyib.

Rəsmi Parisin problemi güc yolu ilə həll etməyə çalışması Yeni Kaledoniyada sakinləri başqa bir problemlə də üz-üzə qoyub. Bəzi supermarketlər məhdudiyyətlər tətbiq edərək, eyni kateqoriyadan olan məhsulun ikidən artıq alınmasına icazə vermirlər. Piştaxtalar tamamilə boşalıb. Saatlarla növbə gözləyən sakinlər ən zəruri ərzaq, süd, çörək və digər məhsulları almaqda çətinlik çəkirlər.

İğtişaşlardan bir həftə sonra Fransa Prezidenti Emmanuel Makron Sakit okean arxipelaqına 24 saatlıq uçuş etsə də, barrikadalardan yayınmaq üçün hava limanından birbaşa Numeadakı polis qərargahına helikopterlə uçub. Adaya müdafiə naziri, daxili işlər naziri və dənizaşırı ərazilər naziri ilə səfər edən Makron paytaxt Numeada verdiyi ilk açıqlamada "Mən bura böyük hörmət, təvazökarlıq və fədakarlıq düşüncəsi ilə sakitliyi bərpa etmək üçün hər şeyi etmək əzmi ilə gəlmişəm" desə də, Yeni Kaledoniyaya iğtişaşları yatırmaq üçün yerləşdirilən təhlükəsizlik qüvvələrinin üç min əməkdaşının adada qalmaqda davam edəcəyini bildirib. Fransa prezidenti əlavə edib ki, təhlükəsizlik qüvvələri, hətta bu il yayda Parisdə keçiriləcək Olimpiya Oyunları zamanı da adadan çıxarılmayacaq.

İğtişaşların ilk günlərində nə qədər gülüşdoğuran olsa da, Fransanın daxili işlər naziri Jerald Darmanen Fransa Milli Assambleyasının hüquq komitəsində çıxış edərək baş verən iğtişaşlarda ölkəmizi əsassız olaraq ittiham etmişdi.

Fransa konstitusiyasına görə, Yeni Kaledoniya xüsusi səlahiyyətləri, özünəməxsus hüquqları olan muxtar dövlətdir. Fransanın özü tərəfindən də qəbul olunmuş bayrağı, pul vahidi, dövlət strukturları var.

Etirazlar təkcə yerli əhalinin Fransa siyasətindən artan narazılığını əks etdirmir, həm də daha çox özünüidarəetməni, yerli xalqların hüquqlarının müdafiəsini və təbii sərvətlərin fransız şirkətləri ilə birlikdə beynəlxalq korporasiyalar tərəfindən istismarına son qoyulmasını tələb edirlər.

Fransanın Yeni Kaledoniyadakı müstəmləkəçilik siyasəti beynəlxalq ictimaiyyət və bəzi insan hüquqları təşkilatları tərəfindən də tənqid edilib. Onlar Parisi yerli xalqların mədəni və hüquqi xüsusiyyətlərinə yetərincə hörmət etməməkdə, habelə onların Fransadan müstəmləkə asılılığından xilas olmaq istəklərinə imkan verməməkdə ittiham edirlər.




Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi müddətdə müstəmləkəçiliyə qarşı olduğunu nümayiş etdirmişdir. Bakıda təşkil edilən beynəlxalq dekolonizasiya tədbirlərində Azərbaycan Prezidenti Fransa hökumətini Yeni Kaledoniya və dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağıraraq demişdir: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır".

Fransanın müstəmləkəçilik siyasətindən bezən, adi insan hüquqlarının tapdalanmasından cana doyub müstəqil yaşamaq, müqəddəratlarını özləri müəyyənləşdirmək uğrunda mübarizə aparan ölkələrdən biri də Fransadan təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasıdır. Bu ölkə yerli dildə Maohi Nui adlandırılır. Polineziyanı Fransanın nüvə poliqonu da adlandırmaq olar. 1966-1996-cı illərdə Fransa tərəfindən burada 200-ə yaxın nüvə sınağı həyata keçirilib. Bölgədə ətraf mühit üçün ağır fəsadlarla nəticələnən nüvə sınaqları 170 min nəfər əhalinin həyatına son qoyub. Eyni zamanda yerli əhali arasında xərçəng xəstəliyinin geniş yayılmasına səbəb olub. Polineziya həm də epidemik xəstəliklərin (çikunqunya böhranı, Denge epidemiyası) yayıldığı ərazi kimi tanınır.

Məsələ ondadır ki, Fransa Yeni Kaledoniyada etnik icmalar arasında tətbiq etdiyi "parçala və hökm sür" siyasətini burada həyata keçirə bilmir. Fransız Polineziyasında həm icraedici, həm də qanunvericilik hakimiyyətində yerli əhalinin üstünlüyə malik olması Fransa dövlətini ciddi şəkildə narahat edir. Alternativ yollar axtaran Fransa dini icmalara təsir göstərib qarşıdurma yaratmağa çalışır. Belə ki, Polineziya əhalisi əsasən protestant və katolikdir. Çoxluq təşkil edən protestantların əksəriyyəti müstəqillik tərəfdarıdır. Polineziyanın adalardan ibarət olmasından sui-istifadə edən Fransa hökuməti katoliklərin çoxluq təşkil etdiyi adalarda rəhbər şəxsləri müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışır.

Fransız Polineziyasının müstəmləkəçilikdən azad olunması məsələsi ilə əlaqədar BMT Baş Assambleyasının "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməsinin həyata keçirilməsinə dair son on ildə 11 qətnamə qəbul olunub.

Mühüm beynəlxalq sənədlərə və yerli xalqın azadlıq mübarizəsinə baxmayaraq, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvlüyü statusundan da istifadə edərək adalardakı kolonial maraqlarını inadkarlıqla davam etdirir. Fransanın Polineziyanı əlində saxlamaq üçün cidd-cəhdlər göstərməsi bu ölkənin müstəmləkəçilik tarixindən, müxtəlif xalqların hüquqlarına laqeyd münasibətindən, həmçinin müstəmləkəsi altında olan ölkələrin sərvətləri hesabına varlanmaqda davam etmək niyyətindən qaynaqlanır. Lakin yerli əhalinin qətiyyəti və getdikcə artan dəstək Fransız Polineziyasının müstəqillik mübarizəsində uğur qazanacağına ümidləri artırır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qərb strukturları məsələlərə yalnız maraqları çərçivəsində yanaşırlar

**"Avropa İttifaqı çərçivəsində müxtəlif instansiyalarda Azərbaycan əleyhinə qərəzli mövqelərin tez-tez sərgiləndiyini müşahidə edirik. Bu sırada Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borrelin də dəfələrlə keçmiş münaqişə vəziyyəti ilə bağlı reallıqdan tam uzaq, heç bir obyektiv əsası olmayan iddialarla çıxış etdiyinin şahidi olmuşuq".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, Azərbaycana qarşı qərəzli, siyasi mövqelərin formalaşdırılması, ümumiyyətlə, Avropa İttifaqı çərçivəsində ayrıca təzyiq aləti kimi nəzərdə tutulur: "Hər zaman müşahidə etmişik ki, Avropa strukturları yalnız öz maraqları çərçivəsində bu və ya digər məsələlərə yanaşaraq, obyektivliyi, ədaləti kənara atırlar. Bu mənada Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stanonun Azərbaycanın ünvanına sayıqlaması davam etdirilən ədalətsiz, ikili standartlar, qərəzli yanaşma siyasətinin növbəti təzahürüdür".



Deputatın fikrincə, səsləndirilən fikirlərdə ikili standartlar yenə də özünü qabarıq şəkildə göstərir. Bu, həmin xarici siyasət və təhlükəsizlik məsələləri ilə məşğul olan strukturdur ki, azərbaycanlıların uzun illər ermənilərin terroruna məruz qalması, doğma yurd-yuvalarından köçkün düşməsi, torpaqlarımızın 30 ilə yaxın Ermənistanın işğalı altında saxlanılması, eyni zamanda vətəndaşlarımızın həyatını itirməsi, ölkəmizə külli miqdarda maddi zərərin vurulması, tarixi-mədəni irsimizin məhv edilməsi kimi həqiqətlərə göz yumub. Bir dəfə olsun belə sadalananlarla bağlı reaksiya verməyib, amma öz maraqlarına cavab verdiyi halda Azərbaycanda ermənilərin guya hüquqları və təhlükəsizliyi ilə bağlı problemlərin olduğunu dilə gətirib.

Elşad Mirbəşiroğlu qeyd edib ki, Azərbaycan ərazisində separatizmə aşkar dəstək nümayiş etdirən Cozef Borrelin mətbuat katibi Peter Stano Azərbaycanda insan hüquqları ilə bağlı hansısa problemlərdən danışa bilər: "Reallıqlara diqqət yetirsək görərik ki, insan hüquqlarının ən kobud şəkildə pozulduğu coğrafiya məhz Avropanın özüdür. İnsanlar kütləvi manipulyasiya şəraitində yaşayırlar. Fransada aksiyalar zamanı dinc etirazçılara qarşı hakimiyyət orqanları tərəfindən qəddarlıq nümayiş etdirilir, Yeni Kaledoniyada kanakların hüquqları kobud şəkildə pozulur. Bununla bağlı hər hansı ciddi mövqe sərgilənmir, amma Azərbaycanda insan hüquqları ilə bağlı qərəzli mövqe ortaya qoyurlar. Guya özlərində hansısa yaxşı bir nümunə mövcuddur və bunu da başqa coğrafiyalara təqdim etməyə çalışırlar".

Avropada insan hüquqları ilə bağlı heç bir yaxşı nümunə olmadığını qeyd edən deputat bildirib ki, Azərbaycan dövlət, ictimai, milli təhlükəsizlik maraqlarından irəli gələn bütün addımlarını vətəndaşları üçün atır: "Azərbaycanın müstəqil siyasəti, sözsüz ki, Avropa strukturlarının ölkəmizlə bağlı təhlükəli maraqları ilə ziddiyyət təşkil edir. Yəni onlar postsovet ölkələrində öz təsirləri və nəzarətləri altında olan qrupların sərbəst fəaliyyətini istəyirlər. Məsələn, Gürcüstan Avropa ölkələrində, ABŞ-də onilliklər öncə qəbul edilmiş bir qərar qəbul edir, amma onlar belə qərar qəbul etdiyinə görə bu ölkəni sanksiyalar tətbiq ediləcəyi ilə təhdid edirlər. Gürcüstanın Avropa İttifaqına yolunu bağlayacaqlarını bildirirlər. Gürcüstan bunu təhlükəsizliyini təmin etmək, ölkəsinin daxili işlərinə kənar müdaxilələri məhdudlaşdırmaq üçün edir. Qərb istəyir ki, Azərbaycanda və digər ölkələrdə özlərinin müdaxilə imkanları qalsın, amma öz işlərinə heç bir halda müdaxiləyə razı olmur. Azərbaycanda isə belə halların qarşısı alınan zaman ölkəmizə qarşı hücumlar başlayır".

E.Mirbəşiroğlu vurğulayıb ki, Azərbaycanın kifayət qədər müsbət imici mövcuddur. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə strukturunun isə Azərbaycanla bağlı hər hansı istiqamətdə münasibət bildirməyə heç mənəvi haqqı yoxdur. Çünki bu struktur ölkəmizə qarşı hər zaman olduqca qərəzli, ədalətsiz mövqeyi ilə seçilib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Niderland Parlamenti Nümayəndələr Palatasının 2024-cü il 23 may tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti



**Azərbaycan Respublikasının Milli Məclisi 2024-cü il mayın 23-də Niderland Parlamenti Nümayəndələr Palatasının ölkəmizi hədəf alan ədalətsiz və birtərəfli qətnamə qəbul etməsinə qəti etirazını bildirir və bu hərəkəti irqçi, azərbaycanofob, türkofob və islamofob siyasi aksiya kimi qiymətləndirərək şiddətlə qınayır. Qətnamədə ölkəmizə qarşı irəli sürülmüş ittihamlar qismən reallıqların təhrifinə, qismən də yalan və saxta məlumatlara əsaslanır.**

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyulduqdan, beynəlxalq hüquq normalarının və prinsiplərinin qüvvəsi bərpa edildikdən sonra Niderland Parlamenti Azərbaycana qərəzli münasibətini dəfələrlə ifadə edərək müxtəlif qətnamələr qəbul etmişdir. Hazırda Ermənistanla sülh danışıqlarının aparıldığı və bu istiqamətdə müəyyən ümidverici nəticələrin əldə edildiyi bir şəraitdə Niderland Parlamentində yenidən belə bir sənədin ortaya çıxması siyasi bəsirətsizliyin və məsuliyyətsizliyin bariz nümunəsidir. Təəssüf doğuran haldır ki, Niderland Parlamentinin üzvləri Azərbaycan torpaqlarının işğal altında saxlanıldığı, 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün taleyi yaşadığı 30 il ərzində bir dəfə də olsun səslərini çıxarmamış, işğalçı ölkəni aşkar və ya gizli surətdə dəstəkləməyə üstünlük vermişlər, bu gün isə Azərbaycan Respublikasına qara yaxan, onun suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn, uzun illər münaqişədə olmuş iki dövlət arasında normallaşma prosesinə zərbə vuran, revanşizmə rəvac verən bir hərəkəti özlərinə rəva görürlər.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət edilməsi digər dövlətlər kimi Niderland Krallığının da beynəlxalq öhdəliklərindən biridir. Digər tərəfdən, bu cür aksiyalar təkcə Cənubi Qafqaz regionunun deyil, həm də bütövlükdə Avropanın sülh, sabitlik və dayanıqlı inkişafla bağlı maraqlarına ziddir.

Niderland Parlamentinin Nümayəndələr Palatasında sözügedən qətnamənin müzakirəsi zamanı xarici işlər naziri Hanke Brüins Slotun deputat sorğusunun cavabında səsləndirdiyi qeyri-adekvat fikirlər, onun Azərbaycan barəsində əvvəllər də irəli sürdüyü əsassız ittihamlar bu ölkənin icra orqanlarının parlament deputatlarının təxribat xarakterli fəaliyyətinə göz yumduqlarını və bu cür fəaliyyəti əslində təşviq etdiklərini göstərir. Bütün bunlar Cənubi Qafqaz regionunda gərginliyin artmasına xidmət edir və sülh gündəliyinin həyata keçirilməsi səylərinə ciddi maneçilik törədir.

Azərbaycan Respublikasının Milli Məclisi Niderland Parlamentinin Nümayəndələr Palatasını, eləcə də bu ölkənin rəhbər vəzifəli şəxslərini Azərbaycanın daxili işlərinə qanunsuz müdaxilə cəhdlərinə son qoymağa, bölgədə artıq tarixə qovuşmuş münaqişəni yenidən alovlandırmaq niyyətindən əl çəkməyə, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılmasına yönələn addımlar atmağa çağırır.

## Avroparlament korrupsiya çirkabına bulaşıb

**"Avropanın bir sıra təşkilatlarının korrupsiya çirkabına bulaşması ilə bağlı yüzlərlə fakt sadalamaq olar. Xüsusilə Avropa Parlamentində bəzi deputatların rüşvət alması və böyük hədiyyələr qəbul etməsi yenilik deyil. Onlar bəlli lobbi qruplarının təsiri altında istədikləri şəxsləri və ya ölkələri gözdən salmaqdan, ya da onlara mələk donu geyindirməkdən ötrü fəaliyyət göstərirlər. Korrupsioner və rüşvətxor avropalı məmur və deputatlar milyonlarla vəsait əldə edərək şəxsi maraqlarını təmin etməklə məşğuldurlar".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib. Deputat qeyd edib ki, rüşvətxorluqda və korrupsiyanın geniş vüsət almasında erməni diasporu və lobbisi xüsusilə seçilir: "Biz birmənalı olaraq bilməliyik ki, Azərbaycan əleyhinə hər hansı söz deyilirsə və qərar qəbul edilirsə, onun arxasında erməni lobbisi və diasporu, çirkli pullar dayanır. Ümumiyyətlə, avroparlamentarilərə külli miqdarda rüşvət verənlər arasında erməniəsilli oliqarxlar çoxdur. Onlar guya İrəvanın müdafiəsi və şəxsi ambisiyaları naminə Avropa Parlamentindən dəstək alırlar".

Deputatın sözlərinə görə, korrupsiya və rüşvət Avropa Parlamentində bir çox deputatın həyat tərzinə çevrilib. Onlar müxtəlif mətbuat orqanları tərəfindən zaman-zaman ifşa edilməsinə baxmayaraq, yenə də öz çirkin əməllərindən çəkinmirlər. Guya düzlükdən və həqiqətdən danışan Avropa Parlamentinin deputatlarının bu hərəkətləri əxlaqa ziddir. Onların dürüstlükdən danışmağa mənəvi haqları yoxdur.

Musa Qasımlı həmçinin deyib ki, baş verənlər Avropadakı bir sıra strukturların böhran içində olmasını göstərir: "Bu, bir daha sübut edir ki, həmin strukturlar dünya ictimai rəyinə təsir etmək imkanlarını itirib, nüfuzdan düşüblər. Onların sözü böhtan və şərdən başqa bir şey deyil. Yeri gəlmişkən, bu çirkin planlar fonunda ölkəmizin adını hallandıranlar yanlış yol tutublar. Azərbaycan gerçəkliyini bilməyən şəxslərin ölkəmiz haqda danışması qəbuledilməzdir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Qərbi Avropa böhran içindədir

### Qoca qitənin bəlaları ruhun yoxsullaşmasından və mədəniyyətin tənəzzülündən doğur

**Son zamanlar Avropa İttifaqı və digər Qərbi Avropa ölkələri artan böhranlarla üzləşirlər. Bu vəziyyəti ən yaxşı səciyyələndirən Fransa Prezidenti E.Makron aprelin sonu və mayın əvvəllərində bir neçə çıxışında Avropanın ölümcül təhlükədə olduğunu bəyan edib. Üstəlik, o, "hər şeyin çox tez dağıla biləcəyini" vurğulayıb.**

Politoloqların fikrincə, Qərbi Avropanın indiki hökmdarlarının böyük əksəriyyəti vəziyyəti adekvat qiymətləndirmir və ABŞ-nin ciddi təzyiqi altında qalaraq, öz milli maraqlarına uyğun gəlməyən qərarlar qəbul edir. Belə siyasət ilk növbədə çoxlu sayda anti-Rusiya sanksiyalarında və nisbətən ucuz Rusiya enerji resurslarının rədd edilməsində özünü göstərir ki, bu da inkişaf tempinin qarşısını əhəmiyyətli dərəcədə alır. Nəticədə isə müvafiq olaraq, əhalinin həyat səviyyəsi aşağı düşür və işçilərin öz hüquqlarını müdafiə fəaliyyəti aktivləşir. Bunun bariz nümunəsi qüdrətli fermer hərəkatıdır.

İngiltərənin "The Economist" jurnalı qeyd edir ki, avropalılar son vaxtlar bir çox böhranlar yaşayıblar və buna görə də çox şeydən - Putinin Rusiyasından, təcridçi Amerikadan, yırtıcı böyük texnologiyalardan, iqlim dəyişikliyindən qorxmağa başlayıblar. Bütün bu çağırışlara cavablar nəzəri olaraq Brüsseldə hazırlanmalıdır, lakin Aİ bürokratiyası öz eqoist maraqları ilə o qədər məşğuldur ki, adi avropalıların ehtiyaclarını başa düşmür. Məşhur alman siyasətçisi və Avropa Parlamentinin üzvü Kristin Andersonun bu yaxınlarda dediyi kimi, indiki liderlər xalqın maraqlarına xidmət etmir, bu, artıq xalqın hökuməti deyil və əhali onlara daimi aldatmağa və hər şeydə adi insanların günahkar olduğunu söylədiklərinə görə məsuliyyətdən yaxa qurtarmağa imkan verməyəcək.

Avropalılar amerikalılardan geri qalır - Aİ ölkələrində ÜDM-i 2019-cu ildən bəri real ifadədə cəmi 4 faiz artıb ki, bu da Amerikada görülən nisbətin yarısıdır.

Buna miqrasiyanın ağırlaşan problemlərini də əlavə etmək lazımdır: Avropa qocalmış əhalisinə görə əlavə işçi qüvvəsi olmadan inkişaf edə bilməz, lakin eyni zamanda Afrika ölkələrindən qeyri-qanuni qaçqın axını böyük təhlükəsizlik çətinlikləri yaradır.

Avropanın tənəzzülünü qitənin tanınmış yazıçıları bəlkə də ən aydın şəkildə hiss edirlər. Fransanın məşhur yazıçısı Mişel Uelbekin "Məhv et" adlı son romanında Avropanın bəlalarının ruhun yoxsullaşması və mədəniyyətin tənəzzülü, eləcə də varlı ilə kasıb arasındakı uçurumun genişlənməsindən qaynaqlandığı iddia edilir.

"New York Times" qəzetinin yazdığına görə, bu il iyunun əvvəlində Avropa Parlamentinə keçiriləcək seçkilər sağçılara fayda verəcək, bu da əhalinin narazılığını əks etdirir.

Amerika mətbuatının yazdığına görə, iyun seçkiləri ərəfəsində keçirilən rəy sorğuları göstərir ki, sağçılar parlamentdəki yerlərin 50 faizini qazanmaq yolundadır - onlar üçün bu, tarixən Avropa siyasətində hökmranlıq etmiş sosialistlərin və xristian demokratların böyük koalisiyasına son qoymaq şansı verir.

Avropa Parlamentinin nüfuzuna son vaxtlar Avropa məmurlarının rüşvət alması ilə bağlı səs-küylü hallar da ağır zərbə vurur (Avropa Parlamentinin sədr müavini və bir sıra deputatlar hələ də həbsdədir).

Avropa qitəsində liberal ideologiyaya əsaslanan dünya düzəninin iflasa uğradığını və məhv edilməli olduğunu, onun yerini dövlət suverenliyinə və milli maraqlara əsaslanan beynəlxalq münasibətlər sistemi ilə əvəz etməli olduğunu başa düşən fiqurlar arasında anlaqlı səslər getdikcə ucadan eşidilir. Bu fikirlər Macarıstan və Slovakiya liderlərinin, eləcə də Avropa İttifaqının digər ölkələrinin bir çox müxalif siyasətçilərinin bəyanatlarında aydın sezilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Avropa Parlamentində növbəti rüşvət qalmaqalı

**Mayın 29-da Belçika polisinin "Russiagate" işi ilə bağlı Avropa Parlamentinin ofisində apardığı axtarışda rüşvət halları aşkarlanıb. Məlum olub ki, Avroparlamentin deputatlarına Rusiya təbliğatının "Avropanın səsi" saytı vasitəsilə irəlilədilməsinə görə rüşvət verilirmiş.**



Avropa Parlamentinin növbəti rüşvət skandalı heç kəsdə təəccüb doğurmadı. Artıq bütün dünya bilir ki, Avropa İttifaqının bu qurumunun fəaliyyəti korrupsiyaya köklənib. Özü də indi yox, neçə müddətdir ki, AP-nin rüşvətxor deputatları qəbul etdikləri qərarları, "qətnamə"ləri, ümumiyyətlə, həyata keçirdikləri bütün işləri külli miqdarda rüşvət müqabilində görürlər.

Bu baxımdan, necə deyərlər, Belçika polisinin Avropa parlamentində rüşvət və korrupsiya ilə bağlı halları ifşa etməsinin bir növ adətkərdəsi olmuşuq.

### Budur "Avropanın səsi"?!

Qurumun növbəti rüşvət biabırçılığı isə avroparlamentarilərin pul qarşılığında "Avropanın səsi" saytında Rusiyanı təbliğ etmələrinin aşkarlanması oldu.

Hələ bu ilin aprelində AP-nin rüşvət qalmaqalına şahidlik etmişdik. Belə ki, həmin zaman Belçika polisi və alman müstəntiqləri Almaniyada başladılan istintaq çərçivəsində sağ mərkəzçi Avropa Xalq Partiyasının (EPP) Brüsseldəki qərargahına basqın etmişdilər.

Almaniyanın "Thueringer Allgemeine" qəzeti mənbələrə istinadən xəbər vermişdi ki, basqın Xristian Demokratların mərkəzi Türingiya əyalətində (Almaniya) lideri Mario Voigta qarşı davam edən korrupsiya istintaqı ilə bağlıdır. İstintaq Voigtin kampaniya zamanı müqavilə bağladığı internet şirkətindən təzminat alması ilə bağlı iddialara əsaslanır.

Xatırladaq ki, 2022-ci il dekabrın 9-da da Belçika polisi AP-də fəaliyyət göstərən korrupsiya şəbəkəsini ifşa etmiş və onun bir neçə üzvünü həbsə almışdı.

Saxlanılanlar arasında həm də AP-nin vitse-prezidenti, yunanıstanlı deputat Eva Kailinin olması isə qurumda rüşvətxorluğun lap yuxarıdan başladığını ortaya qoydu. E.Kaili də daxil olmaqla, saxlanılanlar rüşvət qismində külli miqdarda pul və müxtəlif bahalı hədiyyələr almaqla körfəz ölkələrindən birinin (Qərb mediası daha sonra bu ölkənin Qətər olduğunu açıqladı) xeyrinə qanunsuz lobbiçilik etməkdə, AP-də qəbul edilən qərarlara təsir göstərməyə çalışmaqda ittiham etmişdi.

Həmin zaman müstəntiqlər bildirmişdilər ki, sözügedən korrupsiya şəbəkəsi bir neçə aydır həmin Körfəz ölkəsinin xeyrinə AP-nin müxtəlif iqtisadi və siyasi qərarlarına təsir etməyə çalışıb.

Təbii ki, lobbi pullarına həris olan avroparlamentarilər təkcə Qətərin yox, bir çox ölkələrin lobbilərinin pullarını "yeyiblər" və hələ də buna davam edirlər.

### Rüşvətxor AP-nin antiazərbaycançı qrupu

Rüşvətxor avroparlamentarilərin ən yağlı müştəriləri arasında erməni lobbisi xüsusi yerə sahibdir desək, qətiyyən yanılmarıq. Məsələn, AP-də fəaliyyət göstərən anti-Azərbaycan qrupu Ermənistana dəstək əldə etmək istəyən, həmçinin qanunsuz biznes fəaliyyətini davam etdirmək niyyətində olan erməni oliqarxlardan, mafiya başçılarından külli miqdarda rüşvət qəbul edirlər. İşğal dövründə Qarabağda qanunsuz biznes fəaliyyətləri göstərmiş həmin oliqarxlar əldə etdikləri gəlirlərin bir hissəsini digər qurum və institutlarla yanaşı, AP nümayəndələrinə, Aİ məmurlarına yönəldiblər.

Onlardan biri erməni mafiyasının Belçikadakı əsas siması Kaspar Karapetyandır. "Ədalət və Demokratiya Naminə ümumavropa Erməni Federasiyası" adlı təşkilatın prezidenti olan bu şəxs öz biznesini qanunsuz almaz qaçaqçılığı da daxil olmaqla, müxtəlif qeyri-leqal biznes fəaliyyətləri hesabına qurub. Adı mafiya əməllərində də hallanan Karapetyan Ermənistanın və özünün biznes maraqlarının müdafiəsi üçün avropalı məmur və deputatlara bu vaxtacan milyonlarla vəsait paylayıb.

AP deputatlarına külli miqdarda rüşvət verən daha bir erməniəsilli oliqarx isə Vartan Sirmakesdir. İsveçrə vətəndaşı olan Sirmakes işğal dövründə Qarabağda bank sektoru, kənd təsərrüfatı, mədən sənayesi kimi müxtəlif sahələrdə tamamilə qanunsuz biznes fəaliyyətləri göstərib və Azərbaycanın sərvətlərini talayaraq öz biznes imperiyasını genişləndirib. Serj Sarkisyanın Ermənistanın Marselə baş konsul təyin etdiyi Sirmakes əldə etdiyi vəsaitlərdən avroparlamentarilərə rüşvət və bahalı hədiyyələr şəklində paylayaraq həm Ermənistanın, həm də şəxsi maraqlarının müdafiəsində dəstək toplamağa çalışıb.

Bu və digər erməni oliqarxların, mafiya başçılarının verdiyi rüşvəti qəbul edən bəzi AP deputatları təbii olaraq Azərbaycan əleyhinə qərəzli fəaliyyətləri ilə seçilirlər və parlamentin korrupsiya şəbəkəsinin üzvləridirlər.

### Rüşvət bahasına qəbul edilən qərəzli qətnamələr

Bir fakta diqqət edək: Vətən müharibəsindən sonra - konkret olaraq 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 8 qətnamə qəbul edib. Bu faktın özü belə göstərir ki, erməni lobbisinin oyuncağına çevrilən AP pul hərisliyinə qapılaraq Azərbaycana qarşı davamlı olaraq qərəz nümayiş etdirir.

Hələ 2022-ci ildə Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman Aİ-nin bu qurumunun ölkəmizə qərəzini dilə gətirərək bildirmişdi ki, bəzən adama elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir.

Bəli, görünən dağa bələdçi lazım olmadığı kimi, Avropa İttifaqının qanunverici orqanı Avropa Parlamentinin də korrupsiya yuvasına çevrildiyini bilmək üçün hansısa əlavə faktlara ehtiyac yoxdur.

Son olaraq mayın 29-da Belçika polisinin AP-nin ofisində apardığı axtarışın nəticələri bu qurumun korrupsiya ünvanı olduğunu əyani göstərir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*





## "Böyük qayıdış" proqramı sürətlə icra olunur





# Şuşaya qayıdanların sayı 400 nəfəri ötdü






**Böyük qayıdışın Şuşa salnaməsi davam edir. Dünən daha bir köç karvanı yurduna qovuşdu. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Şuşa şəhərinə 15 ailə - 57 nəfər daimi yaşamaq üçün qayıtdı. Bununla Şuşada 105 ailənin, yəni 406 nəfərin daimi məskunlaşması təmin edildi.**

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr şəhər və kəndlərimizin sürətlə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir. Bunun nəticəsidir ki, artıq 1935 ailə - 7544 nəfər əzəli məskənlərinə qayıdıblar. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 493 ailə (1838 nəfər) Laçın şəhərinə, 822 ailə (3132 nəfər) Füzuli şəhərinə, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndinə, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndinə, 105 ailə (406 nəfər) Şuşa şəhərinə, 44 ailə (169 nəfər) Xocalı şəhərinə yaşamaq üçün dönüb.

### "Bu günlərin şahidi olmaqla yanaşı, iştirakçısı olmaq da bir başqa xoşbəxtlikdir"

Böyük qayıdış sürətlə davam edir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən axarına qayıdır. Şuşalılar uzun illərdir həsrətini çəkdikləri torpaqlarına sevinc və qürur hissi ilə qayıdırlar. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Uzun illərdir yurda dönüşünü səbirsizliklə gözləyən Şuşa sakini Yeganə Nəsibova deyib ki, bu günün gəlib çatdığına hələ də inana bilmir: "Doğma torpaqlarımıza qayıtdığım üçün çox sevincliyəm. Bu hissləri təsvir etmək qeyri-mümkündür. Xoşbəxt xalqıq ki, torpaqlarımızı azad etdik. Var olsun bu günləri bizə yaşadan milli ordumuz, igidlərimiz, Ali Baş Komandanımız. Hər biri ilə fəxr edirik. İndi bu torpaqları daha da inkişaf etdirmək, dirçəltmək üçün hər bir vətəndaş çalışmalıdır".

Yurduna qovuşan keçmiş məcburi köçkün İlhami Cəfərsoy söyləyib ki, artıq Şuşada yeni bir həyat başlayır: "Bu günlərin şahidi olmaqla yanaşı, iştirakçısı olmaq da bir başqa xoşbəxtlikdir. Ən böyük arzum isə Qarabağ Universitetində işləməkdir. İnşallah, yaxın günlərdə pedaqoji fəaliyyətimi orada davam etdirərəm".

### Vətən nisgili çəkən olmayacaq

Böyük Zəfərdən qısa müddət keçməsinə baxmayaraq, azad edilmiş ərazilərimizdə həyat canlanır, bərpa-quruculuq işləri davam etdirilir, keçmiş məcburi köçkünlər yurdlarına qovuşurlar. 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur.

Otuz il öncə torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla ömürlərinin yeni səhifəsinə başlayırlar. Xalqımızın bu sevincinin, qürurunun və güvəninin səbəbkarı isə Müzəffər Ali Baş Komandanın iradəsi və rəşadətli Azərbaycan Ordusunun şücaətidir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Xocalı şəhidlərinin ruhu artıq rahatdır

**"Mayın 28-də - Müstəqillik Günündə Xocalı şəhərinə ilk qayıdan sakinlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən evlərin açarlarının təqdim olunması, sakinlərlə səmimi görüş keçirilməsi tarixi hadisədir. Bu o deməkdir ki, Böyük qayıdışın Xocalı mərhələsi başlayır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması müasir tariximizin ən mühüm hadisəsidir: "2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur erməni işğalından azad olundu. Ötən ilin sentyabrında isə Qarabağ erməni separatçılarından tam təmizləndi və oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və Əsgəranda üçrəngli bayrağımızı ucaltmasını sonsuz iftixar və qürur hissi ilə izlədik. Bu torpaqlarda üçrəngli bayrağımızın dalğalanması tariximizin şanlı səhifəsidir".

Deputat əlavə edib ki, ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə Xocalıda azərbaycanlılara qarşı soyqırımı törətdikləri bütün dünyaya məlumdur: "Şəhər bir neçə saatın içində tamam məhv edildi, uşaqlara, qadınlara, qocalara belə aman verilmədi. Xocalı yarası hər bir azərbaycanlının qəlbini göynədirdi, qaysaq bağlamırdı. Prezident İlham Əliyev ötən ilin oktyabrın 15-də Xocalıda da üçrəngli bayrağımızı ucaltdıqdan və bu il mayın 28-də bu şəhərə qayıdışın başlanmasından sonra soyqırımı qurbanlarının, bütün şəhidlərimizin ruhları rahatlıq tapdı. İlk dəfə olaraq bu soyqırımının 32-ci ildönümü məhz Xocalı şəhərində qeyd edildi, şəhidlər ehtiramla anıldı. Fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdü. Xocalı şəhərində bərpa-quruculuq işlərinə start verildikdən cəmi bir neçə ay sonra keçmiş məcburi köçkünlərin qayıdışına start verilməsi təbii ki, qürur doğurur. Bu gün doğma Xocalıya qayıdan sakinlərin sevincinin hədd-hüdudu yoxdur. Soyqırımına məruz qalmış Xocalıya 32 ildən sonra həyatın qayıtması xalqımızda xoş hisslər yaradır".

Sevinc Fətəliyevanın sözlərinə görə, insanların doğma yurdlarına qayıdışı ilə həmin torpaqlar yenidən canlanır. Xocalıya ilk köç edən sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev dedi ki, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. "Halbuki Ermənistanda revanşistlər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik". Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Xocalıda törətdiyi cinayətləri etiraf etməli və bizdən üzr istəməlidir. Eyni zamanda bu hərbi cinayətini tanımalıdır.

Müsahibimiz, həmçinin qeyd edib ki, müharibənin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərin məskunlaşdırılmasına start verilməsi Azərbaycanın gücünün və qətiyyətinin göstəricisidir: "Bu il 20 min keçmiş məcburi köçkünün qayıdışı təmin olunmalıdır: "Artıq 28-29 may tarixlərində 44 ailənin Xocalı şəhərinə qayıdışı təmin olunub. Rəsmi məlumatlara əsasən, Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub".

Deputat yekunda vurğulayıb ki, doğma Qarabağ torpağının əzəli sakinləri öz yurdlarına geri dönürlər: "Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş bütün ərazilərimiz ən müasir səviyyədə yenidən qurulur. Şübhəsizdir ki, bu torpaqlar dünyanın ən gözəl guşələrindən birinə çevriləcək".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

# Prezidentin müjdəsi: sentyabrdan Xankəndiyə də köç başlayır

## Bu sürət həm də dövlətimizin iqtisadi qüdrətindən qaynaqlanan maliyyə imkanının göstəricisidir

**Davamlı və yüksək iqtisadi artımı hər bir vətəndaş öz həyatında hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bu bərabərlik və ədalətlilik prinsipi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramda təsdiqlənib.**

Bəllidir ki, Azərbaycanda iqtisadi islahatlar dinamikdir və o, ilk növbədə sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasına xidmət edir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sosial güvənliyi daha çox təmin olunur, güzəranı yaxşılaşır. Ölkəmizdə ilbəil yeni iş yerlərinin yaradılması, minimum əməkhaqqının, pensiya və müavinətlərin, imtiyazlı ailələrə verilən yardımların artırılması dövlətimizin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğının təzahürüdür.

İqtisadiyyatın inkişaf dinamikasından söz açmışkən qeyd edək ki, bu ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard, o cümlədən qeyri-neft-qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz artıb. Qeyri-neft sektoru üzrə isə artım 7,7 faiz olub. Bunlar Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 27-də keçirilmiş iclasında 2024-cü ilin dövlət büdcəsinə dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi müzakirə edilərkən bir daha diqqətə çatdırılıb. O da vurğulanıb ki, bu il Qarabağın və Şərqi Zəngəzurun bərpası üçün dövlət büdcəsindən ayrılan vəsaitin (4 milyard manatın) dövlət büdcəsinə təklif edilən dəyişikliklərdən sonra daha 1 milyard 160 milyon manat artırılması nəzərdə tutulur.

30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda dağıntıların miqyasını nəzərə alsaq, deyə bilərik ki, azad edilmiş ərazilərin bərpası maliyyə və zaman alan prosesdir. Odur ki, bərpa prosesinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə aparılması Böyük qayıdışa dair xüsusi proqramlar əsasında həyata keçirilir. Hazırda reallaşdırılan I Dövlət Proqramı çərçivəsində Qarabağın və Şərqi Zəngəzurun bir sıra əraziləri əsaslı şəkildə bərpa edilir və orada müasir infrastruktur yaradılır. Həmin ərazilərin infrastrukturu tamamilə məhv olunduğu üçün bütün işlər sıfırdan qurulur, tikilir və bu zaman texnoloji yeniliklər tətbiq edilir. Böyük qayıdışa dair dövlət proqramının məqsədi də məhz budur.



Azad olunmuş ərazilərdə abadlıq, bərpa, yenidənqurma, tikinti işlərinə Prezident İlham Əliyev şəxsən nəzarət edir. Regiona hər səfərində infrastrukturların açılışında, yeni tikililərin təməlqoyma mərasimində iştirak edən Prezident dönədönə diqqətə çatdırır ki, Qarabağın və Şərqi Zəngəzurun yenidən quruları cənnətə çevrilməsi Azərbaycan dövlətinin birnömrəli vəzifəsidir. Bu səfərlər zamanı dövlət başçısının təməlini qoyduğu strateji obyekt və sənaye müəssisələri, eləcə də yaşayış məhəllələri həm iqtisadi, həm də mənəvi yönümdən çox böyük əhəmiyyət kəsb edir. Bu, həm də bir gün kəndlərin, şəhərlərin tamamilə yenidən qurulacağına, ocaqlarından didərgin düşmüş soydaşlarımızın yurdlarına dönərək o torpaqlarda həyatı yenidən canlandıracaqlarına böyük inamın təzahürüdür.

Mayın 28-də Xocalıya səfər edən Prezident illər sonra öz yurdlarına dönmüş Xocalı sakinləri ilə görüşüb söhbət edərkən demişdir: "Bu gün bax burada - Xocalıda, cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda - görüşməyimiz əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl - fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda memorial kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm. Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax bu gün də gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram". Dövlət başçısı söhbət zamanı daha bir müjdəni də verdi: "Sentyabr ayından artıq Xankəndiyə də köç başlayır".

Qarabağın və Şərqi Zəngəzurun belə sürətli dirçəlişi təbii ki, regiona irihəcmli investisiyaların yatırılması hesabınadır. İnvestisiya isə vəsait deməkdir. O vəsait ki, onu yalnız iqtisadi inkişaf ilə qazanmaq mümkündür. Hazırda dövlət büdcəsinə edilməsi gözlənilən dəyişikliklərdə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işlərinə 1,1 milyard manatdan çox vəsaitin ayrılmasının təklif olunması da məhz bu inkişafın göstəricisidir.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda III Beynəlxalq Simpozium panellərlə davam edib

**İndoneziyanın Cokyakarta şəhərində Sunan Kalijaga Dövlət İslam Universiteti, Azərbaycan İlahiyyat İnstitutu (Aİİ), Mənəvi Dəyərlərin Təbliği Fondu, Kırıkkale Universiteti İslam elmləri fakültəsi və İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda Üçüncü Beynəlxalq Simpozium keçirilir.**





Simpoziuma evsahibliyi edən Sunan Kalijaga Dövlət İslam Universiteti Ədəb və mədəniyyət elmləri fakültəsinin dekanı, professor Məhəmməd Vildan açılış nitqi ilə çıxış edərək bildirib ki, müxtəlif mədəni və dini mənsubiyyətə malik olan insanların dinc yanaşı yaşaması beynəlxalq simpoziumun mövzusu kimi seçilib. Məruzəçi bildirib ki, hazırda mövcud olan həyat nizamını və dinc həyat təcrübələrini məhv edən qlobal dözümsüzlük və müharibə çağırışları ilə üzləşirik. Simpoziumun əsas məqsədi - müxtəlif ölkə və mədəniyyətlərdə teoloji əsasları, dini mətnlərin anlaşılmasını və dinc yanaşı yaşama praktikasını əhatə edən strateji məsələlərin müzakirəsidir.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov simpoziumun plenar iclasında çıxış edərək yarandığı dövrdən etibarən islam dini mənsublarının digər mədəniyyətlərin nailiyyətlərinə qarşı biganə qalmadığını vurğulayıb. Müsəlmanların digər xalqların uğurlarından ən yüksək səviyyədə istifadə etdiklərini, həmçinin bu nailiyyətlərə öz töhfələrini də əlavə edib, böyük bir sivilizasiya yaratdıqlarını diqqətə çatdırıb.

Aİİ rektoru işğaldan azad olunmuş torpaqlarımızda dini abidələrə qarşı erməni vandallarının törətdikləri cinayətlərə, 67 məscidin tamamilə dağıdıldığına diqqət çəkib. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bölgədə həmin məscidlərin bərpaolunma işlərinin aparıldığını qeyd edib. A.Şirinov işğaldan azad olunmuş ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində bir neçə ibadət ocağının, artıq yenidən öz görkəminə qayıtdığını vurğulayıb.

A.Şirinov daha sonra erməni vandallarının törətdikləri misilsiz cinayətlərə qarşı Azərbaycan dövləti və xalqının göstərdiyi tolerantlıq nümunəsinə diqqət çəkib. Bakıda hazırda erməni kilsəsinin mövcud olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Dünən "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda Üçüncü Beynəlxalq Simpozium işini panellərlə davam etdirib. Panellərdə Azərbaycan, Türkiyə, İndoneziya, Malayziya, Tailand, Filippin, Banqladeş, Özbəkistan, Misir, Pakistan və digər ölkələrdən 300-dən artıq alimin məruzəsi dinlənilib.

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov "Azərbaycanda XIX əsrdə müsəlman və qeyri-müsəlmanlar arasında birgəyaşama nümunələri; ortaq qəbiristanlıqlar", ali təhsil müəssisəsi Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov "İslamofobiya bu gün: sosial-siyasi, psixoloji və dini nöqteyi-nəzərdən təhlil", Aİİ rektorunun köməkçisi, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə tarixi şöbəsinin dissertantı Emin Orucov "Hacı Bəktaş Vəlinin birgəyaşayış mədəniyyətinə verdiyi töhfə" mövzularında çıxış ediblər.

*"Azərbaycan"*

# Erməni lobbisi revanşistlərə qarşı çıxır

## Müxalifətçilər Paşinyanın əleyhinə mitinqlərdə kütləviliyi təmin edə bilmir





**Hayastanda baş verən son proseslər erməni cəmiyyətində artıq yeni qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti genişlənir, bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd edir.**

Ancaq Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları heç də asan olmayacaq.

Etirazlar aprelin 19-da İrəvan və Bakının Tavuşdan delimitasiyaya başlamağa razılaşdığı məlum olduqdan sonra başlayıb. Revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lideri" rolunu oynayan, mayın 9-da Tavuşdan İrəvana yürüş keçirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan baş naziri istefaya çağırıb. İstefa tələbi cavabsız qaldıqdan sonra Qalstanyan itaətsizlik aktlarının başladığını elan edib.

Dünən səhər saatlarında "Vətən uğrunda Tavuş" hərəkatının etirazçıları İrəvanın Respublika meydanına toplaşıblar. Etirazçılarla polis əməkdaşları arasında toqquşmalar olub. Hayastan Daxili İşlər Nazirliyi Respublika meydanında bəzi etirazçıların polis əməkdaşlarına hücum etdiyini bildirib. Polis aksiya iştirakçılarını qanunu pozmamağa və polisin qanuni tələblərinə tabe olmağa çağırıb.

"Hraparak" nəşri yazıb ki, Ermənistanın hakimiyyət və müxalifət qanadlarında gözləntilər var idi ki, ötən gün Baqrat Qalstanyan hərəkatı parlamentə yönləndirəcək. Qeyd edilib ki, parlamentdə ötən ilin büdcəsinin icrası ilə bağlı hesabat-müzakirələr başlayıb, bu hesabat-müzakirələrdə qanuna görə Nikol Paşinyan da iştirak etməli idi. Lakin Baqrat bir gün əvvəl Sardarapat memorial kompleksində beretlilərin iştirakı ilə patriarxa qarşı nümayiş etdirilən davranışa və nümayişçilərə qarşı tətbiq edilən zorakılıqlara görə Vahe Qazaryandan izahat tələb etmək üçün Daxili İşlər Nazirliyinə gedib. "Ötən gün Paşinyanın partiyasında aktiv müzakirə aparırdılar ki, hər halda Baqrat iyunun 12-də, qanuna görə, Nikol Paşinyanın da iştirak edəcəyi bu sessiyanın sonuncu iclası zamanı parlamentə "səyahət" edəcək. Onların qiymətləndirməsinə görə, Baqrat Srabzan yaxın günlərdə prosesləri aktivləşdirməyə çalışacaq, çünki sonra hava istiləşəcək və insanları küçəyə çıxarmaq çətinləşəcək", - deyə nəşr qeyd edib.

Bu günlərdə Qərb ictimai təşkilatlarının nümayəndələri Nikol Paşinyandan və onun hakim qrupundan daha güclü şəkildə Erməni Apostol Kilsəsinə müharibə elan ediblər. "Past" nəşrinin yazdığına görə, qeyd olunan Qərb ictimai təşkilatlarının nümayəndələri illər ərzində davamlı olaraq Qərbdən qidalanıblar və cəmiyyətdə onları kollektiv şəkildə "sorosçular" adlandırıblar. Onlar kilsəyə, milli dəyərlərə qarşı dayanmadan müsahibələr verirlər. Həm kilsəni, həm də Paşinyanın millətçi və şıltaq siyasətinə qarşı olan erməni xalqının böyük əksəriyyətini məsxərəyə qoyurlar və ələ salırlar. "Bu, bəlkə də təəccüblü deyil. Axı Nikol Paşinyan 2018-ci ildə həm də bu ictimai təşkilatlar və onları qidalandıranların illər ərzində formalaşan şəbəkəsi sayəsində hakimiyyətə gəlib" - deyə nəşr bildirib.

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycanlı alim Rusiyada səmərəli əməkdaşlığa görə təltif olunub

**Kitabsevərlər İctimai Birliklərinin Beynəlxalq Təşkilatının yaranmasının 50 illik yubileyi münasibətilə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində tədbir keçirilib. Tədbirdə Azərbaycanı İCOMAM (hərb tarixi, hərbi muzeylər və silah kolleksiyaları) beynəlxalq təşkilatın idarə heyətinin üzvü, "Qəsr" Mədəni İrsi və Abidələri Qoruyaq" ictimai birliyinin direktoru, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov təmsil edib.**





İki gün davam edən tədbirdə Rusiya Kitab Birliyinin prezidenti, hüquq elmləri doktoru, professor, general-polkovnik Stepaşin Sergey Vadimoviç tərəfindən tarixçi alim Pərvin Gözəlov məhsuldar əməyə, səmərəli fəaliyyətə, mütaliənin populyarlaşmasına və inkişafına, həmçinin Kitabsevərlər İctimai Birliklərinin Beynəlxalq Təşkilatının 50 illik yubileyi münasibətilə Rusiya Kitab Birliyinin diplomu ilə təltif edilmişdir.

Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yerləşən Silahlı Qüvvələrin Mərkəzi Muzeyində keçirilən tədbirlərdə ölkəmizdən dəvət olunmuş nümayəndələr də yer alırlar. Onlar burada xalqımızın mədəni irsini təbliğ edirlər. Belə mədəni əlaqələr iki ölkəni bir-birinə daha da yaxınlaşdırır. Bu günlərdə keçirilən tədbirdə İCOMAM (hərb tarixi, hərbi muzeylər və silah kolleksiyaları), beynəlxalq təşkilatın idarə heyətinin üzvü, "Qəsr" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq" ictimai birliyinin direktoru, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov da iştirak edib. Əməkdaşlıq çərçivəsində İkinci Dünya müharibəsi dövründə Azərbaycan oğullarının göstərdikləri şücaət və qəhrəmanlıq haqqında tarixi faktlar Pərvin Gözəlovun məruzələrində geniş işıqlandırılıb və çap olunub.

Tədbirin sonunda tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov Rusiya Federasiyası Silahlı Qüvvələrin Mərkəzi Muzeyinin direktoru Aleksandr Konstantinoviç Nikonov tərəfindən elm-maarif sahəsindəki sıx əməkdaşlıq fəaliyyətinə görə fəxri fərmanla təltif olunub.

*"Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan XDND və Zığ GTTZ-nin yarımstansiyalarında 0.4kV-luq hissədə reaktiv itkiləri bərpa edən kompensasiya qurğularının satın alınması üçün açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 iyun 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının katibi - Maliyyə şöbəsinin müdiri Qalib Qəribova əzizi

**AZƏR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4410**
**Sifariş 1177**

**Qiyməti 60 qəpik**